

## Təxribat siyasəti Ermənistanı dalana dirəyib

*Ermənistan hakimiyyəti sülh danışıqlarına hazır olduqlarını bəyan etsə də, müxtəlif müstəvilərdə təxribat xarakterli addımlarından və revanşist niyyətlərindən əl çəkmirlər. Belə ki, istər Ermənistanda ayağa qalxan qüvvələrin Azərbaycana qarşı səsləndirdiyi iddialar, istər Tovuz, Kəlbəcər istiqamətindəki sərhəddəki gərginlik yaratmaq cəhdləri məkrli planların olduğunu ortaya qoyur.*

Səh.9


# UNİKAL

№19 (2104) 03 iyun 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




## Emin Əmirullayevin yanlış diaqnozu

### Bir problemi həll etmək üçün öncə həmin problemi yaradan səbəbləri ortaya çıxarmaq lazımdır!

*Yola salmaq üzrə olduğumuz həftənin ən çox müzakirə edilən mövzularından biri Təhsil naziri Emin Əmrullayev "Təhsil biznesi problem və perspektivlər" mövzusunda keçirilən ictimai müzakirədəki çıxışı zamanı repetitorluq kursları barədə sözləri oldu. Nazir bildirdi ki, Azərbaycanda repetitorluq kurslarının özəl sektordakı payı oturuşmuş ümumtəhsil məktəblərinin sayından qat-qat çoxdur. Onun sözlərinə görə, buna səbəb özəl kursların daha qısa və konkret olmasıdır: "Valideynin gözləntisi ondan ibarətdir ki, repetitor daha qısa müddət ərzində uşağın balını qaldırır. Ona görə ödəmə həvəsi daha yuxarıdır.*

Səh.8



Səh.2

## SÜLHƏ HAZIRLIQ GÖRÜŞÜ: Üçtərəfli İşçi Qrupu Moskvada toplanır

## "Dövlət vəsaitlərinin israf edilməsinin qarşısı alınmalıdır"



*Böyük Quruluş Partiyasının başqanı, Milli Məclisin deputatı Fazil Mustafa "Unikal"a müsahibə verib. Deputat lazımsız qurumlardan, pensiya yaşından, pandemiya dövründəki cərimələrdən və digər məsələlərdən danışıb.*

Səh.4

## "Şuşa Bəyannaməsi bir daha sübut etdi ki" - Spiker



*"Forumun təşkil edilməsinə görə Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop təşəkkür edirəm". "Unikal" xəbər verir ki, bunu Milli Məclisin sədri Sahibə Qafarova ADA Universitetində keçirilən 7-ci Beynəlxalq Sosial Elmlər Konqresində bildirib.*

Səh.4

## Qarabağda kilsələr də qorunacaq



*Deputat Ceyhun Məmmədov "Unikal"a açıqlamasında bildirib ki, Azərbaycandakı multikulturalizm modeli işğaldan azad olunmuş ərazilərdə də tətbiq olunacaq. Onun sözlərinə görə, Azərbaycan sözdə deyil, əməldə bütün dini abidələrə hörmət etmək və qorumağın nə demək olduğunu dünyaya göstərir. Həmsöhbətimiz deyir ki, respublikamızda bütün etnik qrupların sülh və əmin-amanlıq içində yaşamasının səbəblərindən biri də budur.*

Səh.11

# "Dedilər, hara istəyirsən şikayət elə" - Klubun sahibini polisə verdi

***"Uzun müddətdir bu barədə açıqlama vermək istəyirdim. Bədənimin müxtəlif yerləri partlayışda yanıb, əsasda ayaqlarım. Uzun müddətdir ki, müalicə alıram. Amma klub rəhbəri Elşən mənə dəymiş ziyanı qaytarmır".***



Axşam.az xəbər verir ki, bu sözləri bloger Aysel Şükürova sosial şəbəkə hesabında yazıb. Apreldə Bakıda "Location" gecə klubunda baş verən partlayışda yaralanan bloger məkanın sahiblərindən şikayət edib. O bildirib ki, müalicənin pulu qarşılanmayıb: "Nə yanğında itən telefonlarımın pulunu, nə də xəstəxana xərclərimi verirlər. Təkcə mənim yox, nə qədər şikayətçi var onlardan... Heç kimin pulunu vermirlər. Yalandan mənə dedilər 15 gün möhlət verin, artıq 1 ayı keçib. Lazımi yerlərə şikayət vermişəm. İnşallah, layiqi cəzalarını taparlar". Polisə müraciət edən Aysel "İki telefonum yanğın zamanı yanıb, eyni zamanda da bədənim. Axırda mənə açıq şəkildə bəyan etdilər ki, get hara istəyirsən şikayət elə. Mənə dəymiş ziyanı qarşılamaq istəmirlər" sözlərini əlavə edib.

Qeyd edək ki, Bakıda "Location" gecə klubunda baş vermiş partlayışa görə obyekti icarəyə götürmüş "Merser Food" MMC-nin administratoru Rəsul Rəsulov, həmin MMC-nin təsisçisi-klubun meneceri Orxan Səfərov və Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin 2-ci Ərazi Dövlət Yanğın Ərazi idarəsinin inspektoru Ruslan Məmmədov həbs edilib. Həbs edilən menecer Orxan Səfərov məkanı qardaşı Elşən Səfərovla birlikdə işlədib.

Xatırladaq ki, "Location" gecə klubunda aprelin 3-də partlayış baş verib. Hadisə nəticəsində ümumilikdə 4 nəfər həlak olub, 34 nəfər yaralanıb. Partlayış nəticəsində 14 avtomobil, 1 mənzil və 2 qeyri-yaşayış obyektinə ziyan dəyib.

# "Şəxsi həyatıma qarışa bilməzsiniz" - Vəfa Zeynallı

***"22 yaşıma qayıtsaydım həyatımda çox şeyi dəyişərdim. Atamla birgə xeyli vaxt keçirərdim. Atam elə bir işdə idi ki, onu çox görə bilmirdik. Həm o çox az danışan biri idi. Çox gənc yaşda qardaşımı itirmişəm. Onunla o qədər gözəl xatirələrim var ki... Bu gün deyirəm ki, kaş yaşayardı, dalaşardıq yenə... Xəstəliyə düçar olduğu üçün onu itirdik".***



Bu sözləri Əməkdar artist Vəfa Zeynallı "Üzə-düz" proqramında deyib. Aktrisa gənc yaşda qardaşını itirdiyini söyləyib.

V.Zeynallı imtina etdiyi təkliflərdən söz açıb: "Böyük şanslar açıldı mənim üçün, hədsiz böyük təkliflər gəldi. Onlar bu dəqiqə olsaydı, birmənalı şəkildə qəbul edərdim. Özüm də sanki körpələrimə qıymadım, dedim, hələ çox körpədilər. Mühit dəyişməli idi, yoldaşım dedi, mən o mühitə uyğunlaşa bilmərəm. Qızlarım əkiz idi, problemlər oldu 5 il. Dayanmadan xəstəxanalarda... Gəncliyimin ən şux vaxtları idi, amma karyeramda da nəsə edirdim arada. Yoldaşımla mübahisələr olurdu, əsəbimi ona tökürdüm. Sonradan düşünürdüm ki, axı düz deyir. Mən bu körpələri qoyum necə gedim?".

# "Həyat yoldaşım yatan kimi telefonuna girirdim" - Xuraman Şuşalı

***"Həyat yoldaşımı hədsiz çox sevirdim. Özümü atmışdım ikinci plana. Həmin ərəfədə efirə də çıxmadım ki, insanlar görməsin. Depressiyada idim".***

Bu sözləri müğənni Xuraman Şuşalı "Xəbərətər" proqramında deyib. Həyat yoldaşı Elçin Məmmədovdan danışan ifaçı onu qısqandığını, hətta buna görə psixoloq yanına getdiyini açıqlayıb:

"Həyat yoldaşım yatırdı, gedirdim telefonuna girirdim. Psixoloq yanına getdim. Amma xanımlara deyirəm ki, qısqanmayın. Axtarsanız nəsə tapacaqsınız. Öz və onun həyatını məhv etməyin. Psixoloqa dedim ki, bu problemlər var, yaşaya bilmirəm: düşünürəm ki, nə edir, haradadır. Başa saldı ki, özgüvənsizlikdəndir. Hətta onun telefonuna proqram da yükləmişdim ki, güdüm".

Qeyd edək ki, Elçin və Xuraman cütlüyünün dörd övladı var.





# Brilliant Dadaşova konsertinə görə maşınını satdı

***Xalq artisti Brilliant Dadaşovanın bu gün solo konserti baş tutub.***

Müğənni səhnəyə çıxmazdan əvvəl media nümayəndələri ilə görüşüb. Dadaşova konserti üçün avtomobilini satdığını deyib:

"Təşkilatçı dedi ki, mən yalnız sizin konsertinizi təşkil edirəm: bir mikrofon və iki bek vokal mikrofonu. 5-10 nəfərlik ansamblım olacaqdı. Özüm isə daha böyük heyətlə çıxıram. Səs texnikadır, mikrofonlar lazımdır. Təbii ki, bunlar da xərcdir. Düzdür, biletlər satılıb, salon dolub. Amma bunun bizim "Səs Azərbaycan"la bir yerdə çıxmağımıza aidiyyatı yoxdur. Üzərimə götürmüşəm, təşkilatçı buna qatılmır. Ona görə maşınımı satdım. Əlbəttə üzüldüm".

# Aygün Kazımova Naxçıvandakı konsertində çətin anlar yaşadı

***Xalq artisti Aygün Kazımova Naxçıvanda konsert verib.***



Axşam.az xəbər verir ki, izdihamla keçən konsertdə müğənni bir-birinin ardınca sevilən mahnılarını səsləndirib.

Kazımova eyni zamanda 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə "Cücələrim" mahnısını səsləndirib. Balacalarla birlikdə rəqs edən ifaçı onları təbrik edib.

Küləkli hava səhnədə A.Kazımovaya çətin anlar yaşadıb. Səhnədə yıxılma təhlükəsi ilə üz-üzə qalan sənətçi həmin görüntüləri izləyiciləri üçün yayımlayıb. "Səhnədə ekstremal anların öz ləzzəti var" deyə, ifaçı yaşadığı çətinliyi şərh edib.

# Zamiq "Gözlərində"ni təqdim etdi

***Müğənni Zamiq Hüseynov "Gözlərində" adlı yeni mahnı və ona çəkdirdiyi klipini təqdim edib.***

Bəstənin müəllifi OGB-dir. Emin Muradovun rejissorluğu ilə ərsəyə gələn klipdə Zamiq rəngarəng obrazlar yaradıb.

Onun stili üzərində Elnur Həsənov çalışıb. Zamiq kliplə yanaşı yeni fotosessiyasını da pərəstişkarlarının ixtiyarına verib. Şəkillərin müəllifi isə Niko Abbasovdur.



## Vasif Talıbov onları təltif etdi

***Naxçıvanda 3 nəfər "Rəşadətli əməyə görə" nişanı ilə təltif edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov sərəncam imzalayıb.

Sərəncamla, Həsənov Elmar Əbülfəz oğlu, Məmmədov Elmin Əhliman oğlu və Sadiqov Elməddin Kamil oğlu Naxçıvan Muxtar Respublikasında mülki aviasiya sahəsində səmərəli fəaliyyətlərinə görə "Rəşadətli əməyə görə" nişanı ilə təltif ediliblər.

## Nazir müavini: "Azərbaycanda enerji qiymətləri aşağıdır"

***Qarabağ və Zəngəzur iqtisadi zonasında enerji bərpa olunan enerji hesabına təmin olunacaq. Böyük binalarda mənzillərdə mərkəzi isitmə və soyutma sistemləri olacaq.***

"Unikal" xəbər verir ki, bunu energetika nazirinin müavini Elnur Soltanov Bakı Enerji Forumunda çıxışı zamanı deyib.

O bildirib ki, Qarabağda 45 hidroelektrik stansiyasının 5-i artıq bərpa olunub, 18 kiçik SES-lərin bərpası üçün investisiyaların yatırılması nəzərdə tutulur:

"Qarabağda təbii qazdan istifadə olunacaq, lakin bu məhdud çərçivədə olacaq. Əsas xətlərə yaxın yaşayış məntəqələrində təbii qaz olacaq. Digər qəsəbələrdə yaradıcı digər faktorlardan istifadə olunacaq. Bu bərpa olunan enerji və digər həllərə əsasən olacaq".

Azərbaycanda enerji qiymətlərinin aşağı olduğunu deyən nazir müavini bildirib ki, gələcəkdə ölkədə investorların hesabına "Yaşıl enerji"yə keçid planlaşdırılır.

## Əhliman Əmiraslanov Saatlı rayon ağsaqqalları ilə görüşdü

***Azərbaycan Ağsaqqallar Şurası sədrinin birinci müavini, Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik Əhliman Əmiraslanov Saatlı rayon İcra Hakimiyyətinin iclas zalında rayon ağsaqqalları ilə görüş keçirib.***

"Unikal" xəbər verir ki, görüşdə ağsaqqalların rayonun ictimai-siyasi həyatında olan mövqeləri, fəaliyyət istiqamətləri haqqında müzakirələr aparılıb.

Gənc nəslin vətənə, dövlətə sədaqət, milli-mənəvi dəyərlərə bağlılıq ruhunda inkişaf etdirilməsində ağsaqqal və ağbirçəklərin tövsiyyələrinin vacibliyi qeyd edildi. Müzakirələrdə rayon Ağsaqqallar Şurasının gələcək fəaliyyətində qarşıya qoyulan vəzifələrin davamlı həyata keçirilməsi vurğulanıb.

Görüşdə Saatlı rayon İcra başçısı Elmir Bağırov iştirak edib.

## ÜST meymunçiçəyinin yayılmasının ilkin səbəbini açıqladı

***"Meymunçiçəyi və "Lassa qızdırması" kimi xəstəliklərin yayılması iqlim dəyişikliyi ilə əlaqədar olaraq adi hallardan daha tez-tez baş verməyə başlayıb".***

"Unikal" "Reuters" agentliyinə istinadən xəbər verir ki, bu barədə məlumatı Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) fövqəladə hallar üzrə proqramının direktoru Maykl Rayan açıqlayıb.

Onun sözlərinə görə, iqlim dəyişikliyi hava şəraitinin tez-tez dəyişməsinə səbəb olur ki, bu da quraqlığa gətirib çıxarır: "Bu haldа heyvan və insanlar qida axtarışında öz davranışlarını dəyişirlər. Nəticədə heyvanlar üçün xarakterik olan xəstəliklər insanlara ötürülür. Cəmiyyətimizdə infeksiyaların yaranma ehtimalı və onların yayılma riski artır".

# Emin Əmirullayevin yanlış diaqnozu

## Bir problemi həll etmək üçün öncə həmin problemi yaradan səbəbləri ortaya çıxarmaq lazımdır!

***Yola salmaq üzrə olduğumuz həftənin ən çox müzakirə edilən mövzularından biri Təhsil naziri Emin Əmrullayev "Təhsil biznesi problem və perspektivlər" mövzusunda keçirilən ictimai müzakirədəki çıxışı zamanı repetitorluq kursları barədə sözləri oldu.***

Nazir bildirdi ki, Azərbaycanda repetitorluq kurslarının özəl sektordakı payı oturuşmuş ümumtəhsil məktəblərinin sayından qat-qat çoxdur. Onun sözlərinə görə, buna səbəb özəl kursların daha qısa və konkret olmasıdır: "Valideynin gözləntisi ondan ibarətdir ki, repetitor daha qısa müddət ərzində uşağın balını qaldırır. Ona görə ödəmə həvəsi daha yuxarıdır. Amma biz fundamental təhsilə qayıtsaq və tədqiqatlara baxsaq, görərik ki, valideynlər nə qədər pul xərcləyirsə, xərcləsin, aşağı siniflərdə aşağı nəticə göstərən şagirdlərin, yuxarı siniflərdə yaxşı nəticə əldə etməsi çox az hallarda mümkündür. Təhsil uzunmüddətli, davamlı, arası kəsilməz prosesdir. Yəni 9 il heç nə etməyib, 10-11-ci siniflərdə kimsə pul verib daha çox bal yığmaq mümkün deyil. Bu, məncə bizim cəmiyyətimizdə olan bir mifdir".

Bəs nazirin açıqlaması niyə müzakirə, daha doğrusu, mübahisə predmetinə çevrildi?

Demək artıqdır ki, bir neçə il öncəyədək Azərbaycanda yalnız ali məktəbə hazırlaşanlar, yəni 10-11-ci sinif şagirdləri repetitor yanına gedirdilər. Özü də bu həmin sinif şagirdlərinin müəyyən qismi üçün xarakterik idi. Son illərdə isə vəziyyət kökündən dəyişib: artıq nəinki son siniflərin şagirdləri (özü də kütləvi halda!) repetitora üz tuturlar, üstəlik, həmin proses az qala bütün sinifləri əhatə edir. Yəni əvvəlki illərdə yuxarı sinif şagirdləri ali məktəblərə qəbul olunmaq üçün orta məktəblərdə keçərli olmadığı qənaətində idilərsə, indi hətta ibtidai sinif şagirdlərinin valideynləri də eyni fikirdədirlər. Bir az da konkretləşdirsək, heç bir valideyn Azərbaycanın bugünkü iqtisadi-sosial reallığında, ayın sonunu güc-bəla ilə gətirdiyi bir vaxtda pulunu repetitorlara xərcləmək istəməz. Əgər valideyn min bir əziyyətlə qazandığı pulun önəmli bir qismini övladlarının məktəbdənkənar hazırlığına yönəldirsə, bunun üzərində dərindən düşünmək və ölkə təhsilinin durumunu daha soyuq ağılla təhlil etmək lazımdır.

Tibb elminin bəsit qanunlarından biri belədir: "Doğru müalicə yalnız doğru diaqnozla mümkündür. Yanlış müayinə doğru müalicə doğura bilməz".

Bu bəsit prinsipi həyatın istənilən sahəsinə, istənilən problemə tətbiq etmək mümkündür. Biz, həqiqətən də, hansısa problemi həll etmək istəyiriksə, onda ilk növbədə bu problemi doğuran səbəbləri, amilləri dəqiq müəyyənləşdirməli, doğru təsbit etməliyik. Əks halda həmin problemin həl olunacağını gözləmək xam-xəyaldan başqa bir şey deyil.

Bu mənada Təhsil naziri Emin Əmirullayevin yanaşması, bəlkə də, doğru ola bilər. Yəni, "valideynlər nə qədər pul xərcləyirsə, xərcləsin, aşağı siniflərdə aşağı nəticə göstərən şagirdlərin, yuxarı siniflərdə yaxşı nəticə əldə etməsi çox az hallarda, yəni daha çox istisna hallarda mümkündür. Təhsil uzunmüddətli, davamlı, arası kəsilməz prosesdir" fikri, ola bilsin, reallığı daha çox əks etdirir. Lakin məsələnin kökü başqadır.

Məsələnin kökü ondadır ki, Azərbaycanda valideynlər nə üçün orta təhsil sisteminə güvənmirlər? Nə üçün elə fikirləşirlər ki, bu təhsil müəssisələri onların övladlarını ali məktəblərə arzulanan, istənilən səviyyədə hazırlaya bilməz? Problemə məhz bu suallar müstəvisində yanaşsaq, şübhə yoxdur ki, onun real həllinə daha çox yaxınlaşa bilərik. Axı istər valideynlər, istərsə də məktəblilər görürlər ki, repetitor yanına getmədən qəbul imtahanında uğur qazanmaq nadir hadisədir. Belədə yeməyə çörəyi belə güclə tapan bir valideynin boğazından kəsərək övladını repetitor yanına göndərməsinə, doğrudanmı, təəccüblənməliyik?

Yeri gəlmişkən, bir məqamı da vurğulamaq istərdik. Son zamanlar Təhsil Nazirliyi rəsmilərinin açıqlamalarından belə anlaşılır ki, onlar xüsusilə orta təhsil sistemindəki real durumun bir o qədər də fərqində deyillər. Elə götürək repetitor məsələsini. Bəyəm bilməyən varmı ki, əksər orta məktəblərdə müəllimlər şagirdlərini dərsdənkənar hazırlamağa can atırlar? Bu səbəbdən onların orta məktəblərdəki dərslərə ikinci dərəcəli yanaşdığı da kimsəyə sirr deyil. Bir halda ki, müəllim məktəbdə aldığı və dolanmağa çətinlik çəkdiyi maaşın 2-3 qatını dərsdənkənar hazırlıq nəticəsində qazana bilir, onda həmin müəllimi qınamalıyıqmı? Əlbəttə, xeyr!



Necə ki, valideynləri və şagirdləri yalnız orta məktəb dərslərində əldə edilən bilgilərlə ali məktəblərdə qəbul zamanı yüksək nəticələr qazanmağın mümkünlüyünə inanmadıqları üçün qınamaq yanlışdır. Həm də kökündən yanlışdır. Problemə yox, onun səbəblərinə baxmadığımız müddətcə, nəticəni deyil, səbəbi müzakirə etmədiyimiz müddətcə də bu, elə yanlış olaraq da qalacaq!

**_Sənan Mirzə_**

# Taxribat siyasəti Ermənistanı dalana dirəyib

## Görüşlərin intensivliyi, ardıcıllığı bunu deməyə əsas verir ki, Brüssel sülh gündəliyi davam etdirilir və əsas məsələlər üzrə bütün proseslər həllini tapır

***Ermənistan hakimiyyəti sülh danışıqlarına hazır olduqlarını bəyan etsə də, müxtəlif müstəvilərdə təxribat xarakterli addımlarından və revanşist niyyətlərindən əl çəkmirlər. Belə ki, istər Ermənistanda ayağa qalxan qüvvələrin Azərbaycana qarşı səsləndirdiyi iddialar, istər Tovuz, Kəlbəcər istiqamətindəki sərhəddəki gərginlik yaratmaq cəhdləri məkrli planların olduğunu ortaya qoyur. Xüsusən də 28 may Müstəqillik Günü ərəfəsində Türkiyə Prezidentinin Azərbaycana səfəri, verilən mesajlar, "Teknofest"in Bakıda düzənlənməsi və digər proseslər erməniləri daha da narahat edib və daxildə olan təxribat hislərini daha da alovlandırıb.***

Milli Məclisin üzvü Sahib Alıyev məsələylə bağlı fikirlərini bizimlə bölüşərkən deyib ki, Müstəqillik günündə "Teknofest"in Bakıda düzənlənməsi, Türkiyə Prezidentinin bu müqəddəs bayramı burada bizimlə birgə qeyd etməsinə reaksiyalar olacağı gözlənilən idi. Deputat qeyd edib ki, Prezident İlham Əliyev Zəngilanın Ağalı kəndindəki çıxışında Xocalı faciəsinin müstəqilliyimizin bərpasından cəmi 4 ay sonra baş verdiyini, onun ardından Laçının, Şuşanın və digər torpaqlarımızın işğal edildiyini və burada Ermənistanla yanaşı "xarici amil"in mühüm rol oynadığını elə-belə vurğulamırdı: "Yəni diqqətə çatdırılırdı ki, bütün bunların səbəbi bəlli çevrələrin bizim müstəqil olmamızı istəmələri ilə bağlıydı. Həmən çevrələr nə xislətlərini, nə də mövqelərini dəyişiblər. Ona görə də bizim üçün müqəddəs bir gündə cənab Ərdoğanın ölkəmizə səfərini onlar düzgün olaraq Türkiyənin Azərbaycanın müstəqilliyinə öz özgürlüyü kimi yanaşmasının sərgilənməsi kimi baxır və bundan qıcıqlanırlar. Mayın 28-də Xankəndində keçirilən dırnaqarası etiraz mitinqi də elə bununla bağlıydı".

Millət vəkilinin sözlərinə görə, əsas informasiya dəstəyini kimlərin verdiyindən duyulur ki, Azərbaycan və Türkiyə əleyhinə keçirilən, arada Paşinyanın da tənqid olunduğu o aksiyanı hansı çevrələr təşkil etmişdi: "Rusiyanın "Ria Novosti" dövlət agentliyi bildirir ki, "60 min əhalinin yaşadığı" Xankəndində mitinqə yüzlərlə adam qatılmışdı. Ancaq həmin agentliyin yaydığı öndən çəkilən panoramsız görüntülər "yüzlərlə adam" kimi təqdim edilənlərin sayının 200-300-ü keçmədiyini və oradakı digər reallıqları üzə çıxarır. Söhbətin hansı reallıqdan getdiyini açıqlamamışdan öncə onu deyim ki, Qarabağın Rusiya hərbi kontingentinin müvəqqəti kontrolunda olan hissəsində yaşayanların sayı bütövlükdə 25 mini keçmədiyindən Xankəndində "Ria Novosti" nin təqdim etdiyi kimi 60 min adam qala bilməz. Bu dezinformasiyadır. İkincisi, Azərbaycan əleyhinə həm bu, həm də digər təşkil edilmiş aksiyalara qatılanların sayının azlığı, orada daha çox uşaqların yer alması onu göstərir ki, Xankəndi və ətrafında yaşayan hay əsillilərin əksəriyyəti təşkilatçıların müvəqqətiliyini, Ermənistan ordusunun törtöküntüləri və separatçı-terrorçu ünsürlərlə birgə oradan gedəcəklərini yaxşı anlayır, onlar tərəfindən girov götürülmüş toplum kimi yox, digər Azərbaycan vətəndaşları necədirsə, o cür yaşamaq istəyirlər. Yəni, Xankəndindəkilərin çoxu bu hərəkətləri ilə əslində bizimlə birgə olduqlarını göstərirlər".

Sahib Alıyev Qarabağda yaşayan ermənilərin reinteqrasiyasının vacibliyinə də diqqət çəkib: "Ağalı kəndindəki çıxışında cənab Prezidentin də vurğuladığı kimi Qarabağdakı hay əsillilər də anlamalıdırlar ki, artıq separatçı ünsürlərə hədlərini göstərməyin vaxtı yetib. Azərbaycan vətəndaşı olaraq yaşamaq istədiklərini dövlətimiz əleyhinə təşkil edilmiş aksiyalara qatılmamaqla ortaya qoymaq mərhələsindən, bunu açıq şəkildə dilə gətirmək və göstərmək mərhələsinə keçməlidirlər. Çünki reinteqrasiya qarşılıqlı istəyə dayanan prosesdir. Reinteqrasiyanın onlara nə verəcəyini bilmək üçünsə beş addımlıqlarındakı Şuşaya və yenidən qurulan "Ağıllı kənd"ə- Ağalıya baxmaq yetər. İndi ağıllı olmaq zamanıdır".

"Ermənistanın Sevan şəhərinin 4 saylı məktəbində 8-ci sinif şagirdlərinin iştirakı ilə Qafqazda sülh mövzusunda keçirilən tədbir Ermənistanda böyük rezonans doğurdu. Diqqətçəkən məqamlardan biri də bundan ibarətdir ki, Azərbaycan bayrağının üzərindən xətt çəkilmişdi. İstənilən halda "Qafqazda sülh" mövzusunda məktəbdə tədbirin keçirilməsi müsbət hal kimi dəyərləndirilsə də sosial narazılıqlar və Ermənistanın sosial şəbəkələr seqmentində geniş müzakirələr səbəbindən həmin şəkil məktəbin səhifəsindən silindi". Bunu Milli.Az-a açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin Daxili siyasətin təhlili departamentinin baş məsləhətçisi, politoloq İlyas Hüseynov deyib. O bildirib ki, son Brüssel görüşündən sonra Sergey Lavrovun Azərbaycan və ermənistanlı həmkarı ilə telefon danışığı da göstərir ki, Rusiya regionda gedən proseslərdə maraqlıdır: "Ermənistan daxilində neqativ abu-hava getdikcə güclənməkdədir. Nümayişlərə "Daşnaksütyun" partiyasının funksioneri İşxan Saqatelyan rəhbərlik edir. Lakin nümayişə qatılanların say azlığı diqqət çəkən məqamdır. İşxan Saqatelyan nə qədər çalışsa da insanları meydanlara kifayət qədər yığmaq mümkün olmur. Eyni zamanda, bu halda siyasi iqtidar da öz istəklərinə uyğun istifadə edir. Danışıqlar masasında bu arqumenti də istifadə etməyə çalışır. Lakin Brüsseldə keçirilən görüşlərin intensivliyi, ardıcıllığı və müəyyən nizamın qurulması bunu deməyə əsas verir ki, Brüssel sülh gündəliyi davam etdirilir və əsas məsələlər üzrə bütün proseslər həllini tapır.

Brüsseldə 22 may tarixində keçirilmiş görüşdə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel "Qarabağda yaşayan erməni əhali" terminini istifadə edib. Bu, Ermənistan tərəfindən narahatlıqla qarşılansa da mənə elə gəlir ki, Aİ prezidentinin bu mövqeyi çox doğru yanaşmadır. Qarabağda olan ermənilərin hüquqlarının siyasi danışıqlara daşınması da yolverilməzdir. Qarabağda olan ermənilərin hüquqları, imtiyazları, azadlıqları Azərbaycanın daxili işidir və bu siyasi predmetə çevrilə bilməz. Ermənistanın daxilində olan bu məsələ ilə bağlı narahatlığa Şarl Mişel yenidən aydınlıq gətirdi və öz mövqeyini bir daha bildirib.



Ermənistanda daxili narahatlıqların, aksiyaların, nümayişlərin sülh prosesinə təsiri çox minimaldır. Demək olar ki, hazırkı durumda sülhə təhdid törətmək üçün yetərsizdir. Lakin bu problem tezliklə aradan qaldırılmalıdır. Çünki davamlı olaraq bu cür qarışıq vəziyyətin olması yolverilməzdir. Rusiya-Ukrayna müharibəsi səbəbindən Rusiya öz diqqətini Cənubi Qafqaz regionuna cəmləşdirə bilmir. Amma məhz Brüsseldə keçirilmiş görüşdən sonra Sergey Lavrovun Azərbaycan və ermənistanlı həmkarı ilə telefon danışığı onu deməyə əsas verir ki, Rusiya regionda gedən proseslərdə maraqlıdır.

Sərhədlərlə bağlı komissiyanın ilk iclası Moskvada, daha sonra Brüsseldə keçirilməsi planlaşdırılır. Ümumilikdə Brüsseldə keçirilmiş görüşə uyğun olaraq Azərbaycan və Ermənistan liderlərinin sərhədlərarası komissiyanı formalaşdırması, bununla bağlı Sərəncam imzalaması və ilk görüşün Ermənistan-Azərbaycan sərhəddində keçirilməsi Brüssel sülh formatının effektivliyini nümayiş etdirir və apreldən sonra - mayda da keçirilmiş görüş nəticəsində növbəti aylarda da bu tipli görüşün keçirilməsi həyata keçirləcək. Bununla yanaşı, Azərbaycan və Ermənistan liderlərinin xüsusi nümayəndələr səviyyəsində də görüşləri keçirilib. Son görüşdən öncə xüsusi nümayəndələr səviyyəsində görüş keçirilmədi. Lakin bu format da işlək vəziyyətdədir. Eyni zamanda, Şarl Mişelin sonuncu görüş nəticəsində bəyanatı da Azərbaycanın istəklərinə uyğundur və bu format davam etdirilməlidir ki, regionda sülhün, təhlükəsizliyin və sabitliyin əldə olunması reallaşsın".

***Z.Məmmədli***

# Qazilər nazirliyin binası qarşısında etiraz aksiyası keçirdi

***Dünən bir qrup qazi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qarşısına toplaşıb.***

Bununla bağlı sosial şəbəkələrdə görüntülər yayılılb. Onlar nazirliyin binasına daxil olaraq etirazlarını bildiriblər.



İlkin məlumata görə, qazilər əlillik təyinatının olmaması, əksər hallarda imtina cavabı almaları, əyani müayinənin aparılmamasından, komissiyaya gec çağırılmalarından şikayətçidirlər. Hadisəyə polis müdaxilə edib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə Əlaqələr və Kommunikasiya şöbəsinin müdiri Fazil Talıbov etirazçıların qarşısına çıxaraq açıqlama verib: "Qarabağ qazilərinin və şəhid ailələrinin sosial təminatı daim diqqətdə saxlanılır. Qazilər mütəmadi olaraq nazirliyin rəhbər şəxsləri tərəfindən qəbul edilir. Bu gün də onların əlilliklə bağlı müraciətləri olub. Onların sağlamlıq vəziyyəti əlilik təyinatına əsas vermir. Əgər sizin sağlamlıq vəziyyətiniz əlillik təyinatına imkan vermirsə, burada qanundankənar hər hansı addım atmaq mümkün deyil. Bununla belə, hər bir müraciət qeydə alınacaq, araşdırılacaq və məlumat veriləcək. Qazilərin müraciətlərinə həssaslıqla yanaşılır. Onların problemləri mütəmadi şəkildə həll olunur. Vəziyyət araşdırılacaq".



Şöbə müdiri əlavə edib ki, həmin şəxslər birinci növbədə hərbi həkim komissiyasına müraciət etməlidirlər: "Bu komissiya Müdafiə Nazirliyinin tərkibində fəaliyyət göstərir. Bunun müharibə ilə əlaqədar olub-olmadığı müəyyən edilir. Daha sonra İcbari Tibbi Sığorta Dövlət Agentliyi tərəfindən müvafiq şəkildə "forma 88" sənədi rəsmiləşdirilir. Son olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həmin sənədlər əsasında əlilliyin təyin edilməsi ilə bağlı qərar qəbul edir. Qeyd edim ki, əlilik təyinatı bütün xəstəliklərə görə aparılmır. Bununla bağlı Nazirlər Kabinetinin də qərarı var".

# Qətər əmiri İlham Əliyevi təbrik etdi



***Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tani Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.***

"Unikal" xəbər verir ki, məktubda deyilir:

"Zati-aliləri. Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Qətər Dövlətinin xalqı adından, şəxsən öz adımdan Sizə və qardaş xalqınıza səmimi salamlarımı və təbriklərimi, ən xoş arzularımı çatdırıram.

Zati-alinizə möhkəm cansağlığı və səadət, Azərbaycan xalqına firavanlıq və inkişaf, ölkələrimiz arasındakı sıx əlaqələrin gələcəkdə daha da möhkəmlənməsini diləyirəm. Xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edəsiniz".

# Paşinyan etirazlara görə Arayik Arutyunyanı İrəvana çağırdı



***Ermənistanın Baş naziri Nikol Paşinyan, Qarabağda qanunsuz yaradılmış erməni separatçılarının başçısı Arayik Arutyunyanla görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV-lərində yayılan məlumata görə, bu dəfəki görüş əvvəlkilərdən gizli olması ilə fərqlənir.

Qeyd olunub ki, bu gün Arutyunyan Ermənistana ciddi məxfilik şəraitində gəlib, hökumət binasında Baş nazir Paşinyanla görüşüb.

Bildirilir ki, görüşün səbəbi mayın 28-də Xankəndində Paşinyan əleyhinə keçirilmiş aksiyaya görədir.

***Ağarza Elçinoğlu***

# "Bəzi ölkələrdə ərzaq böhranı başlayıb" - Çavuşoğlu



***Ukrayna ətrafındakı vəziyyət dünyanı ərzaq böhranı riski ilə qarşı-qarşıya qoyub, bəzi ölkələrdə bu proses artıq başlayıb.***

"Unikal" xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib.

"Əvvəllər Yaxın Şərqdəki münaqişələrdən danışırdıqsa, indi bu, Avropanın mərkəzindədir. Bir tərəfdən insan dramları, digər tərəfdən enerji qiymətlərinin artması. Dünya ərzaq böhranı riski ilə üz-üzədi. Bəzi ölkələrdə bu proses artıq başlayıb, aclıqla üzləşmə riski var", - Çavuşoğlu Eskişehirdəki Osmangazi Universitetində tələbələr qarşısında çıxış edərkən deyib.

***Ağarza Elçinoğlu***

# SÜLHƏ HAZIRLIQ GÖRÜŞÜ: Üçtərəfli İşçi Qrupu Moskvada toplanır

***Moskvada regional kommunikasiyaların açılması üçün yaradılmış Üçtərəfli İşçi Qrupun növbəti iclası keçiriləcək.***

Bu barədə Ermənistan Baş nazirinin müavini Mqer Qriqoryanın ofisi açıqlama verib.

Azərbaycan, Ermənistan və Rusiya baş nazir müavinlərinin sədrlik etdiyi İşçi Qrup sonuncu dəfə 2021-ci ilin dekabrında Moskvada toplaşmışdı.

Azərbaycanı İşçi Qrupda Baş nazirin müavini Şahin Mustafayev, Rusiyanı isə Rusiya Federasiyası Hökumətinin sədr müavini Aleksey Overçuk təmsil edir.

***İnformasiya şöbəsi***



# Prezident italiyalı həmkarına məktub GÖNDƏRDİ

***Azərbaycan Prezidenti İlham Əliyev İtaliya Respublikasının Prezidenti Sercio Mattarellaya təbrik məktubu ünvanlayıb.***

"Unikal" xəbər verir ki, təbrikdə deyilir:

"Hörmətli cənab Prezident,

İtaliya Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Biz Azərbaycan ilə İtaliya arasında dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirir və onlara böyük əhəmiyyət veririk. İkitərəfli əlaqələrimizin gündən-günə inkişafı, qarşılıqlı etimad və dəstəyə əsaslanan strateji tərəfdaşlığımızın möhkəmlənməsi xüsusi məmnunluq doğurur.



İqtisadiyyat, ticarət və enerji sahələrindəki uğurlu işbirliyimiz və əldə etdiyimiz nailiyyətlər bizi sevindirir. İtaliya şirkətləri Azərbaycanda geniş fəaliyyət göstərir və münasibətlərimizdə vacib rol oynayır. Hazırda bu əməkdaşlıq Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən işğaldan azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulması işlərində də müvəffəqiyyətlə davam edir.

Azərbaycan dost İtaliya ilə çoxşaxəli tərəfdaşlığı xalqlarımızın rifahı naminə daha da genişləndirmək əzmindədir. Bu gün qarşılıqlı faydalı fəaliyyətimizin inkişaf etdirilməsi üçün yaxşı perspektivlər var. Şübhəsiz, iqtisadiyyat, enerji və digər sahələrdəki mövcud potensialdan, xüsusilə qeyri-neft sektorundakı imkanlardan tam istifadə etməklə əməkdaşlığımızı yeni məzmunla zənginləşdirə bilərik.

İnanıram ki, sağlam təməl üzərində qurulmuş ənənəvi dostluq əlaqələrimiz istər ikitərəfli qaydada, istərsə də Avropa İttifaqı çərçivəsində birgə səylərimizlə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə cansağlığı, xoşbəxtlik və işlərinizdə uğurlar, dost İtaliya xalqına daim firavanlıq və əmin-amanlıq arzulayıram".

# İlham Əliyev II Elizabeti təbrik edib

***Azərbaycan Prezidenti İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabetə təbrik məktubu ünvanlayıb.***

"Unikal" xəbər verir ki, məktubda deyilir:

"Ülyahəzrət,

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı - Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

Eyni zamanda Platin Yubileyiniz - taxtda olmağınızın 70 illiyi ilə əlaqədar Sizə ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram. Son yeddi onillik boyu Birləşmiş Krallığın rifahı, hərtərəfli inkişafı naminə yorulmaz fəaliyyətiniz, şəxsi nümunə və



fədakarlığınız Sizə dünyada böyük rəğbət, hörmət və nüfuz qazandırmışdır.

Azərbaycan ilə Birləşmiş Krallıq arasında münasibətlərin bütün inkişaf mərhələlərində, hazırkı səviyyəyə yüksəlməsində, bu gün əməkdaşlığımızın bir sıra sahələrdə strateji xarakter kəsb etməsində Sizin töhfənizi xüsusi qeyd etmək istərdim.

Bu il dövlətlərarası əlaqələrimizin tarixində əlamətdar ildönümüdür - biz ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik. Bu dövr ərzində Azərbaycan ilə Birləşmiş Krallıq arasında təşəkkül tapmış dostluq əlaqələrinin mövcud vəziyyəti bizi sevindirir. Əminəm ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərimiz, səmərəli çoxşaxəli əməkdaşlığımız bundan sonra da uğurla inkişaf edəcək və genişlənəcəkdir.

Ülyahəzrət,

Sizi bir daha səmimiyyətlə təbrik edir, möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, fəaliyyətinizdə uğurlar, dost xalqınıza daim firavanlıq diləyirəm".

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2500

# ABŞ Qod Nisanova sanksiya tətbiq ETDİ

***ABŞ Rusiyanın Ukraynaya hərbi müdaxiləsi ilə bağlı sanksiyaların növbəti paketini açıqlayıb.***

"Unikal" xarici mətbuata istinadən xəbər verir ki, Rusiya hökumət rəsmilərinə və Rusiya Prezidenti Vladimir Putinə yaxın oliqarxlara qarşı bir sıra yeni maliyyə və diplomatik sanksiyalar tətbiq olunub.

Maliyyə Nazirliyi və Dövlət Departamenti tərəfindən tətbiq edilən sanksiyalar Rusiyanın bir neçə tanınmış oliqarxlarının lüks aktivlərinə, o cümlədən Prezident Putinin tərəfdaşlarına məxsus bir neçə yaxtaya, təyyarəyə və ABŞ sanksiyalarından yayınmağa çalışan "lüks aktivlərin idarə edilməsi və xidmət şirkətlərinə" qarşı yönəlib.

Sanksiyalar siyahısına ABŞ Dövlət katibi Entoni Blinkenin "Avropanın ən zəngin adamlarından biri və bir neçə rus məmurunun yaxın adamı" adlandırdığı rusiyalı iş adamı Qod Nisanov və Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarovanın adı daxil edilib.

# Onlar Mərkəzi Bankdakı vəzifələrini itirdi

***Milli Məclisin mayın 31-də keçirilən plenar iclasında Azərbaycan Mərkəzi Bankın İdarə Heyətinə yeni üzvlər təyin edilib. Bunlar Mərkəzi Bankın Baş direktoru Rəşad Təmraz oğlu Orucov və Mərkəzi Bankın sədrinin müşaviri Əliyar Qəhrəman oğlu Məmmədyarovdur.***

"Unikal" xəbər verir ki, artıq həmin şəxslərin adı Azərbaycan Mərkəzi Bankının saytında idarə heyəti bölməsində qeyd olunub. Həmin bölmədə adları yer alan Alim Quliyev, Vadim Xubanov və Aftandil Babayevin adı isə oradan çıxarılıb. Bu şəxslər sonuncu dəfə 2017-ci ilin mart ayında Milli Məclisin qərarı ilə 5 il müddətinə İH-nin üzvü seçilmişdilər. Qeyd edək ki, Mərkəzi Bank İdarə Heyəti tərəfindən idarə olunur və İdarə Heyəti 7 nəfərdən ibarətdir. İdarə Heyətinin 4 əsas üzvündən 3-nün səlahiyyəti bu ilin mart ayında başa çatıb.

***Anar Kəlbiyev***

**ELAN**

Həsənov Amil Yaqub oğluna məxsus AA1273988 seriya nömrəli şəxsiyyət vəsiqəsi, DQ 003000 nömrəli şəxsi vəsiqə, buraxılış bəsiqəsi və maaş kartı itdiyi üçün etibarsız sayılır.

# Bu il Dövlət imtahanı ləğv olunmalıdır - Təklif

## Nazirlik: "Yeni sənəd qəbul edilənə qədər qeyd olunan sənəd qüvvədədir"

***Artıq ali məktəblərdə yaz semesterinin sonu yaxınlaşır, aşağı kurslar semester imtahanlarına, 4 və 5-ci kurslar isə dövlət imtahanı verməyə hazırlaşır. Ancaq sonuncu kurs tələbələri dövlət imtahanının ləğv olunmasını tələb edir, onların imtahan verməklərinin ədalətsizlik olduğunu vurğulayırlar.***

Təhsil eksperti Kamran Əsədov bildirib ki, hazırda ölkənin 51 ali təhsil müəssisəsində187 min tələbə təhsil alır: "Eyni zamanda, 54 orta ixtisas kollecində 60 minə yaxın subbakalavr oxuyur. Bu il təkcə ali məktəbləri 45 minə, kollecləri ilə 20 minə yaxın gənc bitirir. Bu, kifayət qədər böyük insan kontingenti deməkdir".

Onun sözlərinə görə, bu il rəqəmlərə əsasən, 65 mindən çox şəxs dövlət imtahanı verməlidir. Nazirlər Kabinetinin ali təhsil müəssisələrində ilkin attestasiyanın keçirilmə qaydalarında qeyd olunur ki, təhsilin bu pilləsini bitirənlər mütləq ilkin dövlət imtahanı verməlidirlər: "Amma biz bilirik ki, iki ildən artıqdır pandemiya səbəbindən ali və orta ixtisas təhsil müəssisələrində tədrisin tam ənənəvi formada bərpası mümkün deyil. Həmçinin, iki ildir Nazirlər Kabinetinin qərarı ilə Azərbaycanda dövlət imtahanı ləğv edilib. Ölkə ərazisində karantin rejiminin iyulun 1-nə qədər davam etdiyini, ali və orta ixtisas təhsili müəssisələrində tədrisin tam bərpa edilmədiyini nəzərə alsaq, hesab edirəm ki, dövlət imtahanı bu il də ləğv edilməlidir".



Ekspert vurğulayıb ki, hazırda 4-cü kursda oxuyub buraxılış imtahanı verənlər iki il ərzində pandemiya səbəbindən bir sıra imtahanlardan azad olunublar: "Bu amil onu deməyə əsas verir ki, bu il də dövlət imtahanı ləğv olunmalıdır".

K.Əsədov onu da deyib ki, əlavə olaraq, hazırda buraxılış imtahanı verən gənclərimiz magistr və digər semester imtahanlarına görə dövlət imtahanına hazırlaşmayıblar.

"Digər tərəfdən, pandemiya dövründə tədris tam olaraq bərpa edilmədi, müəyyən dərslər hələ də onlayn keçirilir. Bütün bunlar dövlət imtahanının ləğvinin yeganə çıxış yolu olduğunu göstərir", - detə kamran Əsədov əlzvə edib(bakivaxtı).

Təhsil Nazirliyi də dövlət imtahanının ləğvi ilə bağlı təkliflərə münasibət bildirib. Bununla bağlı nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov paylaşım edib.

Paylaşımda deyilir ki, "Ali təhsil pilləsinin dövlət standartı və proqramı" Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli, 75 nömrəli qərarı ilə təsdiq edilmişdir. Bu sənədə əsasən (bənd 7.4) ali təhsil proqramları təhsilalanların dövlət attestasiyası ilə yekunlaşır.

"Dövlət attestasiyası bütün təhsilalanlar üçün məcburidir. Bu sənədin qüvvədə olma müddəti 6 ildir. Lakin, yeni sənəd qəbul edilənə qədər qeyd olunan sənəd qüvvədədir. Belə ki, hazırda da bu sənəd Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Hüquqi aktların vahid elektron bazasında qüvvədə olan sənəd kimi yerləşdirilib. Bununla yanaşı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 iyun tarixli 117 nömrəli qərarı ilə təsdiq edilmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili QAYDALARI"nda da (bənd 2.13, 2.15, 2.16) qeyd olunub ki, "2.13. Bakalavriat səviyyəsində ixtisaslar üzrə təhsil proqramları təhsilalanların dövlət attestasiyası ilə yekunlaşır." Eyni zamanda həmin sənədə əsasən "2.15. Yekun attestasiya bütün təhsilalanlar üçün məcburidir, onun hazırlanmasına və təşkilinə ayrılan müddət 6 həftədir. 2.16. Yekun attestasiya ixtisas üzrə buraxılış yekun dövlət imtahanı (fənlərarası) və ya buraxılış işinin müdafiəsindən ibarətdir".

# Rəqabət Məcəlləsinin qəbulunu yubadan məmurlar kimlərdir?

***"Azərbaycanda islahatların dərinləşdirilməsi üçün zəruri olan hüquqi bazalardan biri də Rəqabət Məcəlləsidir. Artıq illərdir qəbulu gecikən Rəqabət Məcəlləsinin payız sessiyasında Milli Məclisdə müzakirəsi gözlənilir. Bu, Azərbaycanın biznes mühitində çox şeyi dəyişəcək".***



Bu sözləri Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov deyib. Deputat bildirib ki, bu, Azərbaycanda haqlı rəqabətin təmin edilməsi, daxili bazarda monopoliya və inhisarçılığın qarşısının alınması üçün vacib məcəllədir: "Qəbul olunacağı halda, qiymət bazarına da öz təsirini göstərəcək. Demirəm ki, qiymətlər ucuzlaşacaq. Amma istənilən halda müsbət göstəricilər olacaq. Sahibkarların əl-qolu açılacaq, haqsız deyil, azad rəqabət təmin ediləcək".

Hər sahənin monopolistlərinin olduğunu deyən V. Əhmədovun sözlərinə görə, məcəllə qəbul olunandan sonra müəyyənləşdiriləcək ki, bazarda kimin nə qədər payı var: "Hansısa bir şirkətin daxili bazarda payı müəyyən faizə çatanda monopoliya yaranmasın deyə, məhdudiyyət qoyulacaq. Digər şirkətlərə şərait yaradılması, rəqabətin təmin edilməsi üçün addım atılacaq. Rəqabət Məcəlləsini qəbul etsək, onun normal icrasını həyata keçirə bilsək, idxaldan asılılığın azalmasına da imkan yaradacaq. Ümumiyyətlə bu məcəllə bütün sahələrə təsir edəcək".

Parlamentari illərdir bu Məcəllənin qəbuluna mane olan vəzifə sahiblərinin olduğunu istisna etməyib: "Müxtəlif sahələrdə monopolistləşən məmurlar hamıya bəllidir".

Qeyd edək ki, Rəqabət Məcəlləsi 2006-cı ildə prezident tərəfindən Milli Məclisə təqdim edilib. Bu qanun layihəsi iki oxunuşdan keçsə də, hələ 3-cü oxunuşa təqdim edilməyib. Bu il İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən beynəlxalq təcrübəyə əsaslanmaqla Rəqabət Məcəlləsinin yeni layihəsi hazırlanıb. Məcəllənin layihəsi müvafiq dövlət qurumlarının müsbət rəyi alınaraq İqtisadiyyat Nazirliyi tərəfindən Nazirlər Kabinetinə təqdim edilib.



# Lənkəranda polis tələbəni döyüb? - DİN-dən Açıqlama

***Sosial şəbəkələrdə Lənkəranda tələbənin polis əməkdaşları tərəfindən döyüldüyü iddia olunub.***

Paylaşımda 17 yaşlı yeniyetməyə polis bölməsində ağır xəsarətlər yetirildiyi və onun xəstəxanaya yerləşdirildiyi qeyd edilib.

Məsələ ilə bağlı DİN-in Mətbuat Xidmətinin Lənkəran regional qrupunun baş inspektoru Məhəmməd Rzayev "Qafqazinfo"ya bildirib ki, mayın 31-də səhər saatlarında Lənkəran ŞRPŞ-nin əməkdaşları şəhər ərazisində xidmət apararkən Sosial və Aqrar-Texnoloji Kollecin qarşısındakı piyada keçidinin üzərində dayanaraq söhbət edən həmin kollecin tələbələri F.Xinqalov və 17 yaşlı Z.Z-nin nəqliyyat vasitələri və piyadaların sərbəst hərəkətinə maneə yaratdıqlarını müşahidə ediblər: "Polis əməkdaşları bununla bağlı həmin şəxslərə irad bildirərək onları nizam-intizama dəvət etdikdə isə onlar polis əməkdaşları ilə mübahisə edib, həmçinin Z.Z nümayişkaranə şəkildə polis əməkdaşlarına tabesizlik nümayiş etdirib. Lənkəran ŞRPŞ-yə gətirilən hər iki şəxs barəsində İnzibati Xətalar Məcəlləsinin 510-cu (xırda xuliqanlıq) maddəsinə əsasən inzibati protokol tərtib edilib və onlar sərbəst buraxılıblar. Z.Z-nin döyülməsi ilə bağlı səsləndirilən iddialara gəldikdə isə bildiririk ki, həmin şəxsə qarşı polis əməkdaşları tərəfindən heç bir təzyiq və ya digər qanunsuz hərəkətə yol verilməyib. Həmin iddianın heç bir əsası yoxdur".

# Azərbaycanın nümayəndə heyəti beynəlxalq konfransda iştirak edir

***Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü ərəfəsində İsveçin paytaxtı Stokholmda keçirilən beynəlxalq konfransda Azərbaycanı ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyevin başçılıq etdiyi nümayəndə heyəti təmsil edir.***

"Unikal" xəbər verir ki, 1972-ci ildə Stokholmda baş tutmuş Birləşmiş Millətlər Təşkilatının İnsan Ətraf Mühiti Konfransının ildönümünə həsr olunan "Stokholm+50: hamının rifahı üçün sağlam planet - bizim məsuliyyətimiz, bizim imkanımız" adlı beynəlxalq konfransda Azərbaycanın nümayəndə heyətinin rəhbəri R.Hacıyev çıxış edərək, ölkəmizin ətraf mühitin mühafizəsi, iqlim dəyişmələrinin təsirlərinin yumşaldılması sahəsində milli və beynəlxalq səviyyədə gördüyü işlər, işğaldan azad edilmiş ərazilərdə Ermənistan tərəfindən törədilən ekoloji cinayətlər və bu ərazilərin bərpası ilə bağlı görülən tədbirlər barədə məlumat verib.

Səfər çərçivəsində Azərbaycanın nümayəndə heyəti BMT-nin Bazel, Rotterdam və Stokholm Konvensiyalarının Tərəflər Konfransının Yüksək Səviyyəli Seqmentində çıxış edib, eyni zamanda beynəlxalq təşkilatlarla ikitərəfli görüşlər keçirib.



## “Şuşa Bəyannaməsi bir daha sübut etdi ki” - Spiker

***”Forumun təşkil edilməsinə görə Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop təşəkkür edirəm”.***

“Unikal” xəbər verir ki, bunu Milli Məclisin sədri Sahibə Qafarova ADA Universitetində keçirilən 7-ci Beynəlxalq Sosial Elmlər Konqresində bildirib.

Spiker konqresin Azərbaycan və Türkiyə üçün əhəmiyyətli olduğunu deyib.

”Biz bu il Türkiyə ilə diplomatik əlaqələrin 30 illiyini qeyd edirik. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sözlərini diqqətə çatdırmaq istəyirəm. Prezident bildirib ki, dünyada Azərbaycan və Türkiyə kimi bir-birinə dəstək verən, qardaş olan ölkə yoxdur.

Azərbaycan və Türkiyə illər boyu həmrəylik göstərərək kənar müdaxilələrə layiqli cavab verib. Eyni zamanda biz Türkiyənin dəstəyini 44 günlük Qarabağ müharibəsində də gördük. Müharibənin ilk günü Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan öz mövqeyini ortaya qoydu, eləcə də Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop parlamentdə bildirdi ki, hər istiqamətdə Azərbaycanın yanındadır.

Bundan başqa, iki ölkə arasında əlaqələri gücləndirən Şuşa Bəyannaməsi bir daha sübut etdi ki, Azərbaycan və Türkiyə qardaşlığı bundan sonra daha çox inkişaf edəcək. Bu konqres iki ölkə arasında mədəni və elmi əlaqələrə dəstək verəcək”, - deyə Milli Məclisin sədri çıxışında vurğulayıb.

Qeyd edək ki, bu gün Azərbaycanda 7-ci Beynəlxalq Sosial Elmlər Konqresi öz işinə başlayıb. Tədbir 2-4 iyun tarixində Bakıda keçiriləcək. Tədbirdə xüsusi qonaq olaraq Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop və Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova iştirak edir.

## Komitə Milli Məclisə hesabat verəcək

***Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2021-ci il üzrə fəaliyyəti haqqında hesabat Parlamentə təqdim ediləcək.***



“Unikal” xəbər verir ki, bununla bağlı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova məlumat verib. O qeyd edib ki, BMT-nin CEDAW Komitəsinə növbəti dövri hesabat hazırlanıb və iyun ayında təqdim ediləcək: “Hesabatlar 2006-cı ildə qəbul olunmuş “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanunun 20-ci maddəsinə əsasən hazırlanır. Bizim Milli Məclisdə təqdim edəcəyimiz 3-cü hesabatdır”.

# “Dövlət vəsaitlərinin israf edilməsinin qarşısı alınmalıdır”

## Fazil Mustafa: “İslahatlar aparılmalı, qurumların bir çoxu ləğv olunmalı, yaxud birləşdirilməlidir”



***Böyük Quruluş Partiyasının başqanı, Milli Məclisin deputatı Fazil Mustafa ”Unikal”a müsahibə verib. Deputat lazımsız qurumlardan, pensiya yaşından, pandemiya dövründəki cərimələrdən və digər məsələlərdən danışıb.***

***-Milli Məclisin sonuncu plenar iclasında çıxışınız zamanı Azərbaycanda xeyli sayda lazımsız qurumların olduğunu bildirdiniz. Söhbət hansı qurumlardan gedir?***

-Bu kimi məsələlərdə konkret qurumların adını çəkmək istəmirəm. O baxımdan ki, bunu komissiya araşdırmalıdır. Bir-birini təkrar edən universitetlər, dövlət müəssisələri, fondlar və başqa qurumlar var. Bunların hansı bir-birini təkrar edirsə, onlara əlavə vəsait ödəməyin mənası yoxdur. Belə qurumlar və ştatlar çoxdur. Bəzi qurumlar isə konkret adamlara görə yaradılıb və onların heç bir fəaliyyəti yoxdur. Bunlara kompleks şəkildə komissiya baxmalıdır. Dövlət vəsaitlərinin israf edilməsinin qarşısını almaq üçün islahatların aparılmasına ehtiyac var. Qurumların bir çoxu ləğv olunmalı və yaxud da birləşdirilməlidir. Hər hansı bir şəkildə büdcədən ora axan vəsaitin qarşısı alınmalıdır.

***-Bir dəfə çıxışınızda bu məsələni qeyd etmişdiz. Belə ki, vəzifəyə təyinat alan şəxslər olur ki, həmin qurumda uzun müddət çalışan məmuru işdən azad edir, öz komandası ilə işləmək istədiyini bildirir. Həmin məmurların hüquqlarının qorunması üçün hansı addımlar atılmalıdır?***

-Məmurları qorumaq yolları tapılmalı, bunu ən azından qanunda təsbit etmək lazımdır. Vəzifəyə gələn şəxslər heç bir səbəb olmadan təyinat aldıqları yerdə məmurları işdən çıxarırlar. Bu, yolverilməzdir. Məmurları ona görə qorumaq lazımdır ki, təcrübəsi var, dövlət onlara pul xərcləyir. Dövlət qurumlarına onların yetişdirilməsi üçün illər lazım olub. Bir də görürsən, vəzifəyə yeni təyin olunan şəxs gəlib deyir ki, sən lazım deyilsən. Lazım deyildisə, nə üçün həmin şəxsə o qədər vəsait xərclənib? Ondan sonra işdən çıxarılan şəxs üçün başqa sahədə işləmək çətin olur. Bütün bunların hamısı ciddi problemlər yaradır.

***- Ən çox müzakirə olunan məsələlərdən biri də pensiya yaşı ilə bağlıdır. Bununla bağlı parlamentdə də müzakirələr aparıldı. Ölkəmizdə kişi və qadınlar üçün pensiya yaşı neçə olmalıdır?***

-İlk növbədə obyektiv ölüm yaşının müəyyən olunmasına ehtiyac var. Bununla bağlı ümumiləşdirmə aparılmalıdır. Belə ki, ölüm yaşı müəyyən olunduqdan sonra şəxsin minimum 12 il müddətində pensiya alması nəzərdə tutulur. Ölkəmizdə də buna uyğun hərəkət edilməlidir. Bizdə ölüm yaşı 70-72-ni keçmirsə, pensiya yaşı kişilərdə 60, qadınlarda isə 57 nəzərdə tutula bilər. Pensiya yaşının azaldılması lazımdır. Vətəndaşın sağlığını qoruyacaq başqa mexanizmlər yoxdur. Avropada icbari tibbi sığorta var və vətəndaş müalicə olunaraq 90 yaş yaşayır. Belə olan halda bizdə vətəndaş nə etməlidir?

***- Parlamentdə icbari tibbi sığortanın əhatə dairəsinin genişləndirilməsi ilə bağlı fikirinizi bilidirdiniz. Onkoloji xəstəliyin və digər bir çox xəstəliklərin icbari tibbi sığortaya əlavə edilməməsi vətəndaşlar üçün çətinlik yaradır. Hər kəsin xaricdə müalicə olunmaq imkanı yoxdur...***

-Hansısa xəstəliyi icbari tibbi sığortaya əlavə edib digərlərini şamil etməyəndə ortaya problemlər çıxır. Onkoloji, göz xəstəlikləri nədən icbari tibbi sığortaya əlavə edilməsin? Vətəndaş bu xəstəliklərdən əziyyət çəkir. Ona görə də bu xəstəliklərin əlavə edilməsi vacibdir. Digər unudulan xəstəliklər varsa, onlar da əlavə edilməlidir. Sığorta sisteminə üreyin hansı xəstəliyi istəyir onu əlavə etmək prinsipi ilə yanaşırsansa, bunu vətəndaşa açıq söyləmək lazımdır. Bundan sonra vətəndaş bilsin ki, ölməkdən başqa çarə yoxdur. Onkoloji xəstənin müalicə və dərman almağa imkanı yoxdursa nə etməlidir? Bunları düşünmək lazımdır.

***-Bir çox sahələrdə gənclər yüksək vəzifələrə təyinat alır. Necə düşünürsüz, gənc məmurlar yeniliklər tətbiq edə bilirmi?***

-Bəzi sahələrdə xeyli şəffaflıq yaranıb. ”ASAN xidmət” modeli Azərbaycana öz faydasını verdi. Dövlət Miqrasiya Xidməti, Dövlət Gömrük Komitəsi də xeyli işlər görüb. İcra başçılarından da xalqa yaxın olan, onların problemlərini həll etmək üçün çalışanlar var. Bununla yanaşı gənc və hazırlıqsız olanlar da var ki, vəzifənin mahiyyətini anlamırlar. Onlar rəhbəri olduğu sahədə doğru istiqamətdə dəyişiklik etməyə maraqlı görünmürlər. Bu məsələlər tək yaşla deyil, həm də tələb və məsuliyyətlə bağlı məsələdir.

***-Parlamentdə icra hakimiyyətləri ilə bağlı da danışdınız. ”Mən diqqət yetirmişəm ki, hansı rayonlarda icra başçısı yoxdur, ya vəfat edib, ya həbs olunub, həmin rayonlardan şikayət daxil olmur. Deməli, həmin rayonların icra hakimiyyətinin binaları rayona təyin edilən icra başçılarından daha yaxşı idarə edir” deyə fikirinizdə bildirdiniz. Bu sahə ilə bağlı hansı dəyişikliklər olmalıdır?***

-İcra hakimiyyətlərinin normal səlahiyyəti yoxdur. Onlara normal səlahiyyət verib tələb etmək lazımdır. Səlahiyyət olmayandan sonra nə edə bilərlər? Bir çox hallarda öz ərazilərində olan problemi həll edə bilmirlər. Bəzi hallarda isə problemi həll etməyə qabiliyyətləri çatmır. Belə ki, rəhbər həmin rayona, onun spesifikasına, kənd təsərrüfatına aidiyyəti olmayan şəxs olur. Kadr seçimi böyük problemdir. Bəzi hallarda kadr seçimi dövlətə, ölkə iqtisadiyyatına, əhaliyə zərbə vurur. Kadr seçimi zamanı düşünmək lazımdır. Daha çox təcrübəli kadrlara üstünlük verilməlidir. Çoxdan çalışan şəxslərin təcrübəsinə güvənmək lazımdır. Bu, digər sahələrdə də vacibdir.

***-Son vaxtlar referendumun keçiriləcəyi ilə bağlı fikirlər səslənidirilir. Referendum keçirilərsə, hansı dəyişikliklərin olacağı gözlənilir?***

-Hələ belə bir gözlənti yoxdur. Ola bilər ki, hansısa tələb olar, buna baxılsın. Referenduma gedilməsi özündə zəruri məsələləri ehtiva edir. İndiki şəraitdə belə bir zəruri, həyati məsələlərin olduğunu düşünmürəm.

***-Azərbaycanda maska tələbi və digər pandemiya məhdudiyyətləri ləğv olunsa da, quru sərhədlərin açılması ləngiyir. Quru sərhədlər niyə açılmır?***

-Sərhədlər birmənalı şəkildə açılmalıdır. Vətəndaşa əziyyət vermək olmaz. Pandemiya ilə bağlı vəziyyət qaydasındadır, belə halda sərhədləri açmaq olar. Ölkəyə turistlər gələcək, onlar vəsait xərcləyəcəklər. İndiki vaxtda insanlar bundan əziyyət çəkir. Yəqin ki, bu məsələ yaxın günlərdə öz həllini tapar.

***-Bir sıra ölkələrdə pandemiya dövründə yazılan cərimələr silinib. Ölkəmizdə də karantin cərimələri silinə bilərmi?***

-Hazırda bu cərimələri xüsusi tələb edən yoxdur, aktuallığını itirib. Yəqin ki, həmin cərimələr silinəcək. Bunu əvvəl ona görə tətbiq edirdik ki, təhlükə riski böyük idi. İndi bu təhlükə ortadan qalxdığı üçün cərimələri ləğv etmək olar.

***Anar Kəlbiyev***

# Etibar Pirverdiyev "biznes imperiyası"nı "diriltmək" üçün axtarışda

Sabiq "işıq şefi" "Expressbank"dakı paylarını xeyli yüksəltdi, indi onun hədəfində çoxmilyonluq tenderlər var

***"Expressbank" ASC-nin nizamnamə kapitalında səhmdarların iştirak paylarında dəyişiklik olub.***

Belə ki, "Azenco Group" MMC-nin payı 40%-dən 48.78%-ə, "Enerqoservis" MMC-nin payı 17.69%-dən 21.57%-ə, Hikmət Xammədovun payı 16%-dən 19.52%-ə, Hafiz Seyidovun payı 8%-dən 9.75%-ə, Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin payı 0.31%-dən 0.38%-ə yüksəlib.

18%-lik xəzinə səhmləri isə digər səhmdarlar tərəfindən əldə edilib.

31 dekabr 2021-ci il tarixində "Expressbank" ASC 112 milyon 545 min manat nizamnamə kapitalına malik olub.

Xatırladaq ki, "Expressbank" ASC 21 iyun 1989-cu il şirkətidir. Elə digər iri payçı - "Enerqoservis MMC" haqqında da bunu demək olar.

Yazımızın əvvəlindəki rəqəmlərdən də göründüyü kimi, hazırda bankın səhmlərinin ümumilikdə 90 faizi Pirverdiyevin nəzarətinə keçib. "Expressbank" 2021-ci ili 10 milyon 569 min manat kimi yüksək məbləğlə ifadə olunan xalis mənfəətlə başa vurub.

Ötən saylarımızdan birində də vurğulamışdıq ki, sabiq "işıq şefi" vəzifəsini itirdikdən sonra onun bankı böhranlı günlər yaşamağa, zərərlə işləməyə başlamışdı. Hətta adıçəkilən bankın bağlana biləcəyi də gündəmə gəlmişdi. Lakin son zamanlar "Expressbank"ın maliyyə göstəricilərinin yaxşılaşdığına dair xəbərlər, bu diqqətini özünün bank biznesinə yönəldib. "Azərenerji"nin sabiq rəhbərinin bunun üçün imkanlarını səfərbər etdiyi deyilir. Qeyd olunur ki, bütün bunların müqabilində çöküş mərhələsində olan, hətta bağlana biləcəyinə dair xəbərlərlə gündəmə gələn "Expressbank" üçün kritik mərhələ arxada qalıb.

Bununla belə, vəzifədə olarkən korrupsiya əməlləri ilə ad çıxarmış, elə həmin əməllərin də güdazına getmiş Pirverdiyevin digər şirkətləri üçün böhranlı durumun davam etdiyi də yayılan iddialar arasındadır...

Deyilənə görə, sabiq "işıq şefi" həmin şirkətlər üçün iri satınalmalar qazanmağa çalışır, lakin onun belə səyləri hə-



tarixində təsis olunmuş və uzun müddət "Azərnəqliyyatbank" adı altında fəaliyyət göstərmişdir. Bank öz fəaliyyətini Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən 30 dekabr 1992-ci il tarixində verilmiş lisenziya əsasında həyata keçirir. Bankın Səhmdarlarının Ümumi Yığıncağının 01 fevral 2010-cu il tarixli qərarı ilə "Azərnəqliyyatbank" ASC-nin adı dəyişdirilərək "Expressbank" ASC adlandırılmış və Nizamnaməyə müvafiq dəyişiklik 04 mart 2010-cu il tarixində dövlət qeydiyyatına alınmışdır.

Dəyişiklik bununla da məhdudlaşmayıb: bank faktiki olaraq "Azərenerji" ASC-nin sabiq sədri Etibar Pirverdiyevin tam nəzarətinə keçib. Belə ki, bankın əsas səhmdarlarından biri Xammədov Hikmət Hacəmməd oğlu onun qaynıdır. Ən iri payçı "Azenco Group MMC" isə keçmiş "işıq şefi"nin bankın sahibkarlara ən çox dəstək verən banklar arasında liderliyinə dair məlumatlar vəziyyətin dəyişdiyini söyləməyə imkan verir. Hətta "Fitch Ratings" beynəlxalq reytinq agentliyi bir müddət öncə "Expressbank"ın yüksək reytinqini növbəti dəfə təsdiqləmişdi. Belə ki, iqtisadi mühit, müştəri portfelinin dinamikası və keyfiyyəti, artım perspektivləri, şəffaflıq, gəlirlilik, və s. kimi vacib göstəricilər əsasında bankları dəyərləndirən "Fitch Ratings" "Expressbank"ın biznes strategiyası, uğurlu siyasəti, stabil maliyyə göstəricilərinə yüksək qiymət verərək Bankın reytinqini "B" səviyyəli "stabil" proqnozu ilə təsdiq etmişdi.

Bəs Prverdiyevin bankında vəziyyətin 180 dərəcə dəyişməsinin səbəbi nədir? Keçənlərdə də qeyd elədiyimiz kimi, iddialar bu yöndədir ki, E.Pirverdiyev son zamanlar bütün lə ki, istənilən nəticə vermir. Pirverdiyevin zamanında elektrik obyektlərinin tikintisi və əsaslı təmiri ilə məşğul olan və qeyri-rəsmi sahibinin himayədarlığı sayəsində çoxmilyonluq tenderlərin şübhəli qalibinə çevrilən "Azenco" ASC-nin əvvəlki qüdrətindən əsər-əlamət qalmayıb. Ümumiyyətlə "Azenco Group"a daxil olan digər şirkətlərdə də durum ürəkaçan deyil.

Lakin "Expressbank"da işlərin yoluna qoyulması sabiq "işıq şefi"ni ürəkləndirir. Bu səbəbdən də biznes imperiyasının yenidən canlanması, nəzarətindəki şirkətlərin vəzifədə olduğu zamanlardakı kimi çoxmilyonluq layihələrə çıxış əldə etməsi üçün cəhdlərini davam etdirir. Həmin cəhdlərin nə vaxtsa nəticə verib-verməyəcəyini isə zaman göstərəcək.

***Sənan Mirzə***

# Şentop: Azərbaycan-Türkiyə Universitetinin yaradılması vacibdir

***"Azərbaycan və Türkiyə arasında əlaqələrin təhsil və elm sahəsində də inkişaf etməsini dəstəkləyirik".***

Bunu Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop ADA Universitetində keçirilən 7-ci Beynəlxalq Sosial Elmlər Konqresində bildirib.

"Buna görə də iki ölkənin birgə universitetinin yaradılması vacibdir. İki ölkənin parlamenti Şuşa Bəyannaməsini təsdiq edib. Həmin sənəddə ölkələrimizin daha da yaxınlaşmağına şərait yaradacaq məqamlar var. Biz təhsil sahəsində əlaqəni bu bəyannamə ilə dəstəkləyirik. Belə universitetin hətta gələn tədris ilində fəaliyyətə başlamasını arzulayıram", - deyə spiker vurğulayıb.

# "Əsas müzakirə mövzusu Qarabağdır" - Hafiz Paşayev

***Bakıda keçirilən Beynəlxalq Sosial Elmlər Konqresində əsas Qarabağ məsələsi müzakirə olunacaq.***

"Unikal" xəbər verir ki, bunu ADA Universitetinin rektoru Hafiz Paşayev konqresin açılışında bildirib.

Onun sözlərinə görə, tədbir iştirakçıları Ermənistanın törətdiyi vəhşiliklər və Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə gördüyü bərpa işləri ilə tanış olacaqlar.

Qeyd edək ki, bu gün Azərbaycanda 7-ci Beynəlxalq Sosial Elmlər Konqresi öz işinə başlayıb. Tədbir 2-4 iyun tarixində Bakıda keçiriləcək.

Tədbirdə xüsusi qonaq olaraq Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop və Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova iştirak edir.

# Rövşən Rzayev Nadir Adilovla görüşdü

***Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilovla görüşüb.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qaçqın və məcburi köçkünlərlə iş sahəsində məqsədyönlü dövlət siyasətinin həyata keçirildiyi, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın bu kateqoriyadan olan insanlara xüsusi diqqət və qayğı göstərdiyi qeyd edilib.

Görüşdə doğma yurda qayıdışa hazırlaşan məcburi köçkünlərin ölkəmizdə yeni tətbiq olunan mediasiya barədə məlumatlılıq səviyyəsinin artırılması, bu məqsədlə maarifləndirici tədbirlərin təşkili və onları mediasiya xidmətindən istifadəsinə dəstək göstərilməsinin vacibliyi vurğulanıb, birgə layihələrin həyata keçirilməsi ilə bağlı razılıq əldə olunub.

Görüşün sonunda qarşılıqlı faydalı, uzunmüddətli və effektiv əlaqələrin qurulması məqsədilə birgə əməkdaşlıq haqqında memorandum imzalanıb.

# Onlar Mərkəzi Bankdakı vəzifələrini itirdilər

***Milli Məclisin mayın 31-də keçirilən plenar iclasında Azərbaycan Mərkəzi Bankın İdarə Heyətinə yeni üzvlər təyin edilib. Bunlar Mərkəzi Bankın Baş direktoru Rəşad Təmraz oğlu Orucov və Mərkəzi Bankın sədrinin müşaviri Əliyar Qəhrəman oğlu Məmmədyarovdur.***

"Unikal" xəbər verir ki, artıq həmin şəxslərin adı Azərbaycan Mərkəzi Bankının saytında idarə heyəti bölməsində qeyd olunub.

Həmin bölmədə adları yer alan Alim Quliyev, Vadim Xubanov və Aftandil Babayevin adı isə oradan çıxarılıb. Bu şəxslər sonuncu dəfə 2017-ci ilin mart ayında Milli Məclisin qərarı ilə 5 il müddətinə İH-nin üzvü seçilmişdilər.

Qeyd edək ki, Mərkəzi Bank İdarə Heyəti tərəfindən idarə olunur və İdarə Heyəti 7 nəfərdən ibarətdir. İdarə Heyətinin 4 əsas üzvündən 3-nün səlahiyyəti bu ilin mart ayında başa çatıb.

***Anar Kəlbiyev***

# Qazilər nazirliyin qarşısında aksiya keçirdi

***Bu gün bir qrup qazi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qarşısında etiraz aksiyası keçirib.***

"Unikal" xəbər verir ki, onlar nazirliyin binasına daxil olaraq etirazlarını bildiriblər.

İlkin məlumata görə, qazilər əlillik təyinatının olmaması, əksər hallarda imtina cavabı almaları, əyani müayinənin aparılmamasından, komissiyaya gec çağırılmalarından şikayətçidirlər.



# Heydər Əliyev Mərkəzinin parkında “Uşaq festivalı” keçirilib

***İyunun 1-də Heydər Əliyev Mərkəzinin parkında ”Uşaq festivalı” keçirilib. Heydər Əliyev Mərkəzinin təşkilatçılığı, Heydər Əliyev Fondu, Təhsil Nazirliyi, Nərimanov Rayon İcra Hakimiyyəti və ”Regional İnkişaf” İctimai Birliyinin dəstəyi ilə keçirilən tədbirə giriş sərbəst olub.***

Festivalda uşaq evlərinin sakinləri və internat məktəblərinin şagirdləri də iştirak ediblər. 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təşkil olunan festival balacalara bayram əhvalı yaşatmaqla yanaşı, həm də onların xoşbəxt, sağlam böyüyüb yetişməsinə, təhsil almasına, layiqli vətəndaş kimi formalaşmasına cəmiyyətin diqqətini bir daha yönəltmək məqsədi daşıyıb.

Festivalda müxtəlif əyləncə və maarifləndirici proqramlar təqdim olunub. Hər bir uşaq öz marağına uyğun əyləncə seçib asudə vaxtını səmərəli keçirə, istedadını nümayiş etdirə bilib. Parkın ərazisi müxtəlif mövzular və əyləncə növləri üzrə bölünüb. Belə ki, idmansevərlər üçün mini turnirlər, yarışlar, interaktiv oyunlar təşkil olunub, şahmat yarışlarında iştirak etmək, Olimpiya çempionları ilə görüş fürsəti yaradılıb.

N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanası üçün ayrılmış meydançada kosmos, planetlər barədə maraqlı faktlar təqdim edilib. Yüksək texnologiyaya maraq göstərən uşaqlar interaktiv dərslərdə dronların hazırlanma prosesi ilə də tanış olmaq imkanı qazanıblar. Arxeoloji meydançada bu sahəyə maraq göstərən uşaqlar şərti axtarış apararaq qum altından müxtəlif arxeoloji tapıntı maketləri aşkar etmək fürsəti qazanıb. Mini fermada isə heyvanlarla ünsiyyət qurmaq imkanı yaradılmışdı.

Festival çərçivəsində Azərbaycan Avtomobil Federasiyası uşaqlar üçün yol hərəkəti qaydalarına dair təlim təşkil edib. İncəsənət zonası, kitabsevərlər guşəsi, rəqs, meydançaları, kater yarışı, konsert proqramları və digər əyləncələr balacalara gözəl xatirəyə dönəcək anlar yaşadıb. Keçirilən müsabiqələrdə qaliblərə və iştirakçılara müxtəlif hədiyyələr təqdim olunub.

Beləliklə, Heydər Əliyev Mərkəzinin parkı gün ərzində həm əyləncə, həm də yaradıcılıq məkanı kimi uşaqların ixtiyarına verilib və unudulmaz bayram sevinci yaşanıb.

”Uşaq festivalı”na gələn uşaqların bəziləri öz təəssüratlarını bölüşüblər.

Onlardan biri olan Zəhra Qəhrəmanlı deyib: ”Uşaq festivalı” mənim çox xoşuma gəldi. Bu festivalın təşkilatçılarına təşəkkürümü bildirirəm. Burada uşaqlar üçün çox maraqlı proqramlar təşkil edilib. Mən şəhid nəvəsiyəm, bütün uşaqların, xüsusilə şəhid və qazi övladlarının bayramını təbrik edirəm”.

Digər iştirakçı Həsən Zərbəliyev Heydər Əliyev Mərkəzinin parkını çox bəyəndiyini, buraya gəldiyi, dostları ilə gözəl vaxt keçirdiyi üçün çox sevincli olduğunu deyib. O bildirib ki, ”Uşaq festivalı”nda onlar üçün təşkil edilən bütün əyləncə və maarifləndirici proqramlar çox maraqlı idi.

Məryəm Nəcəfzadə isə bütün uşaqları 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təbrik edib. Festivalda iştirak etdiyi üçün çox xoşbəxt olduğunu deyib. ”Burada dostlarımla birgə əyləncəli vaxt keçirdim. Uşaq bayramı mənim ən çox sevdiyim günlərdən biridir. Bu bayram münasibətilə bütün uşaqları, şəhidlərimizin övladlarını da təbrik edirəm”, - deyə Məryəm Nəcəfzadə söyləyib.

Nigar Hüseynli isə sevincini bu sözlərlə ifadə edib: ”Festivalı çox bəyəndim, burada çox əyləndik. Digər uşaqlarla söhbətləşmək, oynamaq mənim üçün çox xoş idi. Mən istəyirəm ki, hər gün uşaqların bayramı olsun. Belə günlərdə özümü həmişə yaxşı hiss edirəm. Sabah müəllimlərimə də festival barədə danışacağam”.

# Azərbaycanda siqaretin qiyməti ilə manipulyasiya edənlər...

## Ölkədə siqaret satışını monopoliyada saxlayan oliqarxlar bahalaşma qarşısında susurlar

***Son günlər sosial şəbəkələrdə siqaretin bahalaşması ilə bağlı iddialar yer alıb. Bunun ardınca Unikal.org bəzi siqaretlərin qiymətində artım qeydə alındığını xəbər verib. Belə ki, əksər siqaretlərin bir qutusunun qiyməti 10 qəpik artırılıb. Satış məntəqələrindən qiymət artımına səbəb kimi firmaların siqaretləri baha gətirməsi göstərilib.***

Mövzu ilə bağlı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən də münasibət bildirilib. Qeyd olunub ki, bazarda qiymət manipulyasiyası kimi hallar baş verərsə, qanunamüvafiq tədbirlər görüləcək: ”Liberal bazar iqtisadiyyatı şəraitində tütün məmulatlarının qiyməti rəqabət prinsiplərinə uyğun olaraq tələb-təklif əsasında formalaşır. Bazarda qiymət manipulyasiyası ilə əlaqədar konkret faktlar olduğu təqdirdə istehlakçılar və sahibkarlar 195-1 çağrı mərkəzi, elektron poçt (office@competition.gov.az) və rəsmi internet səhifəsi (//competition.gov.az/az/page/muraciet/erize-sikayet-teklif) vasitəsi ilə Dövlət Xidmətinə müraciət edə bilərlər. Bazarda antiinhisar qanunvericiliyinin pozulması əlamətləri aşkar olunduğu təqdirdə qanunamüvafiq tədbirlər görüləcək”.

Xatırladaq ki, hazırda Azərbaycanın siqaret bazarında iki inhisarçı şirkət mövcuddur və hər iki şirkət deputatların nəzarətindədir. Bu deputatlardan biri Rüfət Quliyevdir.O, Bakı Tütün Kombinatının nəzdində yaradılan və 2000-ci ildən siqaret istehsalına başlayan “European Tabacco Baku” ASC-nin İdarə Heyətinin sədridir. Adıçəkilən şirkət ölkədə siqaret istehsalı ilə məşğul olan iki yerli şirkətdən biridir. Vaxtilə Rüfət Quliyev etiraf etmişdi ki, Azərbaycanda bazarın siqaret tələbatının 25-27 faizini onlar təmin edirlər. Lakin ticarət sektorundakı mənbələr bu rəqəmin minimum 50 faizdən çox olduğunu iddia edirdilər.

Digər deputat isə son zamanlar yalnız qalmaqallı xəbərlərlə medianın gündəminə gələn Cavanşir Feyziyevdir. Belə ki, bir müddət öncə “Azərbaycan Sənaye Korporasiyası” ASC-yə məxsus “Azərtütün” ASC-nin 85 faizlik səhm paketinin özəlləşdirilməsinə dair investisiya müsabiqəsinin nəticəsi açıqlanıb. Məlum olub ki, həmin səhm paketinin əldə edilməsi üzrə müsabiqənin qalibi “Tabaterra Leaf” QSC adlı şirkətdir. Həmin vaxt bildirilirdi ki, şirkət səhm paketi üçün 17 milyon 281 min 464 min manat ödəməlidir, habelə daha 6.3 milyon manat dövlət büdcəsinə ödəyəcək və ümumi həcmi 8 milyon manatdan az olmamaqla investisiya proqramını təqdim edəcək.

“Azərtütün” ASC ötən ilin aprel ayında prezidentin sərəncamı ilə özəlləşdirməyə açılıb.

Bəs “Azərtütün ASK”-nın 85 faizlik səhm paketini alan şirkət barədə nə məlumdur? Yerli medianın yazdığına görə, “Tabaterra Leaf” QSC bu ilin aprel ayının 24-də (təsadüfən “Azərtütün”ün özəlləşdirməyə açıldığı vaxtlarda) dövlət qeydiyyatına alınıb. QSC Sumqayıt şəhəri, Sülh küçəsi, 18 ünvanında - “Xovlu İpək Fabriki”nin ərazisində qeydiyyatdan keçib. QSC-nin nizamnamə kapitalı 5 min manat, qanuni təmsilçisi isə Elman Bəşir oğlu Cavanşirdir. Elman Bəşir oğlu Cavanşir həm də ölkənin aparıcı siqaret istehsalçısı olan “Tabaterra” QSC-nin qanuni təmsilçisidir. Nizamnamə kapitalı 78 milyon 10 min manat olan “Tabaterra” QSC 2017-ci ildə dövlət qeydiyyatına alınıb.




Şirkət həmin ildə də Sumqayıt Kimya Sənaye Parkında rezidentdir və tütün məmulatları istehsalı fabrikini açıb. “Tabaterra” fabrikində 3 formatda olmaqla beynəlxalq standartlara uyğun siqaret istehsal edilir. Böyük Britaniya, Almaniya və İtaliya texnologiyaları əsasında qurulan fabrikdə il ərzində 11 milyard ədəd 3 növdə filtrli siqaretlər istehsal edilir. Layihənin dəyəri 50 milyon dollara yaxındır. Fabrikin açılışı zamanı deyilirdi ki, “Tabaterra” ölkənin tütün məmulatlarına olan tələbatının 80 faizini qarşılaya biləcək gücdədir.

“Tabaterra Leaf” şirkətinin qanuni təmsilçisi kimi qeydiyyatdan keçmiş Elman Bəşir oğlu Cavanşir “Avromed” şirkətinin rəhbəri, Milli Məclisin üzvü Cavanşir Feyziyevin qardaşı oğludur. Bu isə mediada deputat-biznesmenin artıq siqaret bazarına da girişdiyi və tezliklə bu sahədə bazarın ən önəmli oyunçularından biri olacağı barədə şərhlər verilməsinə gətirib çıxarmışdı.

Elə ona görə də siqaret bazarında davamlı bahalaşmaya görə indi Rüfət Quliyevlə yanaşı Cavanşir Feyziyev də sərt tənqidlərə tuş gəlir. Onların qiymətləri süni artırdığına dair ittihamlar səsləndirilir, eyni zamanda Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti monopolist şirkətlərə qarşı konkret addımların atılacağını bildirir.

Həmin şirkətlər və onların rəhbərləri, himayədarları isə həmişəki kimi bu ittihamlar qarşısında yenə də susmağa üstünlük verirlər...

***Toğrul Əliyev***

# Özəlləşdirmə çeklərinin qaranlıq taleyi...

## Əhalinin əlində qalan qiymətli dövlət kağızlarının aqibəti necə olacaq?

***Son aylarda mediada və sosial şəbəkələrdə əsas müzakirə mövzularından biri də əhalidəki özəlləşdirmə çeklərinin taleyidir. İctimai-siyasi xadimlərdən, Milli Məclisin deputatlarına, hüquqşünaslardan iqtisadçılaracan cəmiyyətin ən müxtəlif təbəqələrindən olan tanınmış şəxslər hökumətə çağırış edərək, çekləri əllərində qalmış vətəndaşların problemlərini həll etməyə səsləyirlər.***

"Azərbaycan Respublikasında dövlət özəlləşdirmə payları (çekləri) haqqında" Əsasnamədə qeyd olunur ki, özəlləşdirmə çekləri dövlət mülkiyyətində olan əmlakın Azərbaycan Respublikası vətəndaşlarına əvəzsiz olaraq verilməsini təmin edən qiymətli kağızdır. Qanunda özəlləşdirmə paylarının ölkə vətəndaşlarına özəlləşdirilən dövlət müəssisələrinin və investisiya fondlarının səhmlərini almaq üçün verilməsi təsbit edilib.Belədə aydın görünür ki, heç özəlləşdirmə çekləri elə indinin özündə də dövlət qiymətli kağızıdır. Lakin 2011-ci ildən özəlləşdirmə çeklərinin tədavül müddətinin başa çatması vəziyyəti dəyişdirib. Yüzminlərlə vətəndaşın əllərində qalan qiymətli kağızlar dəyərini itirib. Baxmayaraq ki, qanunda özəlləşdirmə payları ilə bağlı müddət nəzərdə tutulmamışdı.

Mövzu ilə bağlı mətbuata danışan vəkil Fuad Ağayev maraqlı fikirlər səsləndirib. O bildirib ki, "tədavül müddəti" deyilən anlayışın özü hüquqi baxımdan düzgün termin deyil: "Lakin bir halda ki, buna gediblər, heç olmasa, bütün vətəndaşların bu prosesdə iştirakına şərait yaratsınlar. Hökumət orqanları bunu belə əsaslandırır ki, həmin vətəndaşların imkanı olub ki, zamanında vauçerlərini satışa çıxarsınlar. Bu, düzgün yanaşma deyil! Əgər vətəndaş mülkiyyət əldə edirsə, onun hüququ var ki, öz əmlakını qorusun. Bu, ona bən-




zəyir ki, birdən-birə deyirlər ki, "evinizi satın, bir müddət sonra mənzillərin satışı qadağan ediləcək". Bu kökündən yanlış yanaşmadır".

Oxşar fikirləri əksər hüquqçuların, eləcə də iqtisadçıların səsləndirdiyini nəzərə aldıqda istər-istəməz sual yaranır: bəs bu yanlış yanaşmanı dəyişməyə və doğru qərar qəbul etməyə nə mane olur?

İstisna deyil ki, özəlləşdirmə çekləri ilə bağlı vətəndaşların haqlı şikayətlərini nəzərə almağa da hansısa məmur maraqları mane olur. Azərbaycan təcrübəsində oxşar hallar az deyil. Məsələn, götürək elə yüzminlərlə evin sənədləşdirilməsi məsələsini... Bu məsələnin həlli ilə bağlı hətta ölkə rəhbərliyi səviyyəsində konkret iradə nümayiş etdirilməsinə baxmayaraq problemin aradan qaldırılması yubanır. Əksər ekspertlərin fikrincə, sənədləşdirmə prosesini sabotaj edən elə icra hakimiyyətlərinin özləridir. Onlar hansısa səbəblərdən bu işin sürətlənməsində maraqlı deyil. Hələ 2011-ci ilin martında Bakı Şəhər İcra Hakimiyyətində keçirilən müşavirədə prezident rəsmi icazə olmadan tikilmiş evlərin sənədləşdirilməsi ilə bağlı hökumətə xüsusi tapşırıq verdiyini demişdi: "Bakıda evlərin qeydiyyata alınması problemi var. Ancaq elə etmək lazımdır ki, bu problem həll olunarkən xoşagəlməz halların qarşısı tam şəkildə alınsın. Sirr deyil ki, qeydiyyata alınma zamanı əsassız tələblər irəli sürülə, rüşvət, əsassız maraqlar ola bilər. Bu, reallıqdır. Ona görə də Hacıbala Abutalıbova göstəriş vermişəm. Bu məsələnin həlli üçün şəffaf mexanizm işlənməlidir ki, biz burada korrupsiyanı, rüşvətxorluğu tamamilə aradan götürək. Yoxsa, xoşniyyətli bir təşəbbüs yenə də bəzi adamların tamahkarlığı ucbatından bizə ancaq problemlər gətirə bilər". Amma görünən odur ki, ölkə başçısının dediyi kimi, ötən müddətdə bu xoşniyyətli təşəbbüsdən qaz vurub qazan dolduranlar vardı. Əks halda sənədləri qaydasında olan vətəndaşları min bir bəhanə ilə gətgələ salmazdılar.

Mümkündür ki, deputatlar, tanınmış ictimai-siyasi xadimlər, hüquqçular, iqtisadçılar özəlləşdirmə çekləri ilə bağlı cəmiyyətin haqlı istəkləri ilə həmrəylik nümayiş etdirdiyi halda bu problemin həlli istiqamətində real addımların atılmasını da hansısa məmur maraqları əngəlləyir. Necə ki, əksər ekspertlərin dediyi kimi, sənədsiz evlərlə bağlı prosesi sabotaj eləyən də elə həmin maraqlardır, məsələn, elə icra hakimiyyətlərinin özləridir. Onlar hansısa səbəblərdən bu işin sürətlənməsində heç cür maraqlı deyillər, ya da ən azından kənar müşahidələr belə qənaətə gəlməyə əsas verir.

Və təəssüf ki, oxşar mənzərə özəlləşdirmə çekləri ilə bağlı da yaşanır...

***Murad İbrahimli***



## "Rusiya diplomatik mühasirədən çıxış yolları axtarır" - Politoloq

***"Rusiya diplomatik mühasirədən çıxış yolları axtarır". "Unikal" xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu bildirib.***

Onun sözlərinə görə, Rusiyanın Avropada tərəfdaşı qalmayıb: "Doğrudur, Serbiya və Macarıstan kimi Avropa dövlətləri Rusiyaya qarşı sanksiyaların əleyhinədirlər. Hər ikisinin Rusiyanın neft və qazına ehtiyacı var. Ancaq Belqrad və Budapeşt belə Rusiyanın Ukraynada apardığı işğalçı müharibəyə haqq qazandıra bilmirlər. Serbiya Avropa İttifaqına üzv olmaq istəyir və buna görə gələcəkdə Brüsselin təlimatlarından kənara çıxara bilməyəcək".

Politoloq qeyd edib ki, Avropadan əli üzülən Kremlin yeganə ümidi Çinədir: "Moskvada "Rusiya və Çin: yeni dövrdə əməkdaşlıq" adlı konfrans təşkil edilib. Sayca 7-ci olan bu konfransda iki ölkənin elm adamları və diplomatları bir araya gəliblər. 2015-ci ildən bu yana keçirilən konfrans iki ölkə arasındakı əlaqələrin strateji və praktik tərəflərini müzakirəyə çıxarır. İlk konfransın 2015-ci ildə keçirilməsi təsadüfi deyil. Bundan bir il əvvəl Rusiya Krımı ilhaq etmiş və Donbasda separatçı bölgə yaratmışdı. Nəticədə Kremlin Qərblə münasibətləri gərginləşdi və Moskva üzünü Avropadan Çinə çevirdi".

E.Şahinoğlu bildirib ki, konfransda çıxış edənlər Qərbin Rusiya və Çinə qarşı təzyiq siyasəti yürütdüyü bildiriblər: "Bunda qeyri-adi heç nə yoxdur. Rusiyanın işğalçı siyasəti və Çinin artan hərbi gücü və qonşularına qarşı əzələ nümayişi Qərbin bu iki dövlətə qarşı siyasətini sərtləşdirməyi diqtə edib. Tədbirdə çıxış edən Rusiya xarici işlər nazirinin müavini İqor Morqulov mövcud durumu belə xarakterizə edib: "NATO Avropa ilə yanaşı Asiyaya da daxil olub, Rusiya və Çin sərhədlərinin bütün perimetri boyunca problemli nöqtələr yaradıb, bu isə silahlanma yarışının artmasına gətirib çıxarıb"".

Politoloqun sözlərinə görə, əslində rusiyalı diplomatın dedikləri bütövlüklə Rusiya və Çinə aiddir: "Rusiyanın 2008-ci ildə Gürcüstana qarşı işğalçı müharibəsi, 2014-cü ildə Krımı ilhaq etməsi, Donbasda separatçı bölgə yaratması və bu ilin fevralında Ukraynaya qarşı başlatdığı işğalçı müharibə Qərb ölkələrini daha çox silahlanmağa vadar edib. Ukrayna müharibəsinə görə Finlyandiya və İsveç kimi neytral dövlətlər NATO-ya üzv olmağı qarşılarına məqsəd qoyublar. Bu arada, Çinin hərbi qüdrətini artırması və Tayvan adasına artan iddiası ABŞ-la yanaşı bölgə ölkələrindən Avstraliya, Hindistan və Yaponiyanı da yeni və modern silahlar almağa vadar edib. Rusiya və Çin siyasətlərini dəyişdirməyincə silahlanma yarışı tam gücüylə davam edəcək".

***Hüseyn***

# FHN-dən əhaliyə xəbərdarlıq

***Fövqəladə Hallar Nazirliyi (FHN) yanğın təhlükəsizliyinə dair əhaliyə müraciət edib.***

Nazirlikdən "Unikal"a daxil olan müraciətdə deyilir: "Havaların isinməsi və yay mövsümü kənd təsərrüfatı sahəsində fəaliyyətin daha da aktivləşməsi və insanların təbiət qoynunda istirahətə marağının artması ilə müşayiət olunur. Lakin nəzərə alsaq ki, havanın hərarətinin yüksəlməsi yanğınların baş verməsi və daha sürətlə yayılması təhlükəsini artırır, daha diqqətli davranmaq tələb olunur. Bir sıra hallarda insanların ehtiyatsız və ya məsuliyyətsiz davranışı, təsərrüfat fəaliyyəti və ya istirahət zamanı müvafiq yanğın təhlükəsizliyi qaydalarına əməl etməməsi yanğınların baş verməsinə, nəticədə dövlət və ya xüsusi əmlaka, milli və təbii sərvətlərimizə, o cümlədən meşə və qoruqlarımıza ziyan dəyməsinə, habelə insanların həyat və sağlamlığının təhlükə ilə üzləşməsinə səbəb olur.

FHN əhaliyə müraciət edərək, havaların isinməsi ilə əlaqədar yanğın təhlükəsizliyi tələblərinə ciddi əməl edilməsinin vacibliyini vurğulayır və bir neçə sadə təhlükəsizlik qaydalarını bir daha xatırladır: Taxıl zəmilərində, xırmanlarda, ot tayaları yığılan yerlərdə və onların yaxınlığında açıq oddan istifadə etməyin və siqaret çəkməyin, sürtkü yağı, benzin, ağ neft, dizel yanacağı və digər yanar mayelərlə islanmış materialları, eləcə də şüşə qab və şüşə qırıntılarını ətrafa atmayın, siqaret kötüyü və kibriti tam söndürülməmiş atmayın, fərdi yaşayış evləri, təsərrüfat və istehsalat müəssisələrinin həyətlərini quru ot və tullantılardan vaxtaşırı təmizləyin, təbiət qoynunda tonqal qalayarkən bunun üçün xüsusi hazırlanmış yer, yaxud köhnə tonqalın yerini, quru ot, kol-kos, ağac və ağac qırıntılarının olmadığı açıq sahəni seçin, ətrafını 0,5-1 metr radiusda otlardan təmizləyin. Tonqalı nəzarətsiz qoymayın, tonqalın tam söndüyünə əmin olmadan ərazini tərk etməyin - tonqal əvvəlcə su ilə söndürülməli, sonra isə üstü torpaqla örtülməlidir, küləkli havada tonqal qalamayın. Yadda saxlayın ki, meşə sahələrində tonqalların qalanması qadağandır, yanğın baş verərsə, mümkündürsə, onu əlinizin altında olan vasitələrlə (su, torpaq, qalın parça materialı və s.) söndürməyə çalışın və 112 - qaynar xəttinə məlumat verin. Unutmayın: qaydalara biganəlik həyatımıza təhlükədir! Təhlükə zamanı 112-yə zəng edin!".



# Səfər Mehdiyev Özbəkistanın nümayəndə heyəti ilə görüşdü



***Xəbər verdiyimiz kimi, Özbəkistan gömrük xidmətinin nümayəndə heyəti ölkəmizdə səfərdədir.***

"Unikal" xəbər verir ki, nümayəndə heyətinə Özbəkistan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-mayoru Akmalxuja Mavlonov rəhbərlik edir.

Azərbaycan gömrüyünün təcrübəsini öyrənmək məqsədilə ölkəmizə gələn qonaqlar Dövlət Gömrük Komitəsinin Akademiyası, "Azərterminalkompleks" Birliyi və ÜGT-nin Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinə baş çəkib, sözügedən qurumların fəaliyyəti ilə tanış olublar.

Dövlət Gömrük Komitəsinin Akademiyasında Özbəkistan gömrük xidmətinin ölkəmizdə səfərdə olan nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev, Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzov, Komitənin və Akademiyanın aidiyyəti strukturlarının əməkdaşları, Özbəkistan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Akmalxuja Mavlonov və onun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak ediblər.

Akademiyanın rəisi Qulu Novruzov qonaqlara Dövlət Gömrük Komitəsinin Akademiyasının yaranması, tədris prosesi və beynəlxalq əməkdaşlıq sahəsindəki fəaliyyəti barədə məlumat verib və iki ölkə arasında mövcud olan əlaqələrdən bəhs edərək təhsil sahəsində əməkdaşlığın vacibliyini qeyd edib.

Dövlət Gömrük Komitəsinin Akademiyasında olmaqdan məmnunluğunu bildirən Özbəkistan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Akmalxuja Mavlonov ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi, gömrük işinin təşkili istiqamətində də səmərəli işgüzar münasibətlərin genişləndirilməsinin əhəmiyyətini vurğulayıb. O, qarşılıqlı maraq doğuran sahələr üzrə əməkdaşlığın gələcək perspektivlərindən söz açaraq, təşkil edilən görüşün qarşılıqlı təcrübə mübadiləsinin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

Sonra Gömrük Akademiyasının beynəlxalq əməkdaşlıq üzrə mütəxəssisi Leyla Nəcəfova Akademiyanın fəaliyyəti, beynəlxalq əməkdaşlıq sahəsində nailiyyət və prioritetləri, xarici ali təhsil müəssisələri və gömrük təlimi strukturları, digər beynəlxalq qurumlarla əlaqələr və layihələr haqqında təqdimatla çıxış edib.

Qonaqlar Akademiyada təhsil alanlar və ixtisasartırma kurslarında iştirak edən gömrük xidməti əməkdaşları üçün yaradılan şəraitlə, həmçinin yeni qurulan linqafon kabineti, müasir texniki nəzarət vasitələri ilə təmin olunmuş auditoriyalar və tədris prosesi ilə tanış olublar.

Daha sonra "Azərterminalkompleks" Birliyi ilə tanış olan qonaqlar qurumun binasında yerləşən Heydər Əliyev Muzeyini ziyarət ediblər. Qonaqlara Azərbaycan xalqının ümummilli liderinin həyat və fəaliyyətini əks etdirən eksponatlar, ulu öndərin gömrük orqanlarının yaranması və formalaşmasındakı mühüm rolu barədə məlumat verilib.

Nümayəndə heyəti Birliyin tərkibində fəaliyyət göstərən Gömrük Tarixi Muzeyi ilə də tanış olub. Bildirilib ki, muzey müxtəlif vaxtlarda qaçaqmalçılıq yolu ilə ölkənin gömrük sərhədindən keçirilməsinə cəhd göstərilən və gömrükçülər tərəfindən saxlanılan tarixi eksponatlardan təşkil edilib.

Səfər Çərçivəsində nümayəndə heyətinin üzvləri ÜGT-nin Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin fəaliyyətilə də tanış olublar. Bildirilib ki, ofis 2011-ci ilin oktyabrında istifadəyə verilib və rəsmi açılış mərasimində ÜGT-nin Baş katibi Kunio Mikuriya iştirak edib. Ümumdünya Gömrük Təşkilatının 52 üzv ölkəsini əhatə edən Regional Ofisə Dövlət Gömrük Komitəsi tərəfindən həm maddi-texniki, həm də kadr təminatı ilə dəstək göstərilir, burada yerli və xarici mütəxəssislər çalışır.

Qonaqlara məlumat verilib ki, ofisin fəaliyyəti regional üzv dövlətlərin gömrük administrasiyalarına işin daha səmərəli təşkil edilməsi və institusional inkişafın təmin olunması istiqamətində dəstək vermək, potensialın gücləndirilməsi ilə bağlı tədbirlər həyata keçirməkdən ibarətdir.

# Şeyxin qudasının Həcc sevdası

## 33-cü dəfə hacı olmaq istəyən Qalib Salahzadəyə kiçik bir xatırlatma...

***Milli Məclisin sabiq deputatı, Qafqaz Müsəlmanları İdarəsinin sədri Hacı Allahşükür Paşazadənin qudası Hacı Qalib Salahzadə bu il Həcc ziyarətinə getmək istəyib, amma icazə verilməyib.***

Səbəbi də odur ki, bu il Həccə yaşı 65 yaşdan yuxarı olanlar buraxılmır.

Qeyd edək ki, Şeyxin qudası indiyədək 32 dəfə Həccə gedib. Bəli, bəli, nə az, nə çox, düz 32 dəfə! Sonuncu dəfə o, ötən ilin dekabrında Həcc ziyarətinə yollanıb. Həmin vaxt bununla bağlı yerli mediaya açıqlamasında deyib ki, Allahın izn verdiyi, canının sağ olduğu müddətdə yenə də ziyarətə gedəcək. Sitat: "Mən ziyarətə getməyə bilmərəm. Allah icazə verdiyi üçün mən gedirəm. Bu imkana bağlı olan məsələ deyil. Elə imkanlı adam ola bilər ki, getmək istəyər, ancaq başına hansısa hadisə gələr, bu istəyi reallaşmaz".

Hacı Qalib bu il, 33-cü dəfə Həccə gedə bilməsə də payızda Ümrə ziyarətinə gedəcəyini bildirib: "Ümrə özü də elə kiçik Həcc ziyarəti hesab olunur".

Sabiq deputat Həcc ziyarətinin müzakirələrə səbəb olan qiymətindən xəbərsiz olduğunu söyləyib: "Bu il qiymətlərin nə qədər olduğunu bilmirəm, yəqin ki, çəkilən xərcə uyğun olacaq".

Onu da deyək ki, bu gün Azərbaycanda Həcc ziyarətinə gediş üçün sənəd qəbulu başa çatıb, qısa müddət ərzində 680 nəfərlik kvota yeri dolub. Pandemiya şəraiti davam etdiyindən 65 yaşdan yuxarı vətəndaşların ziyarətə getməsinə icazə verilməyib. Bu il Həcc ziyarətinin qiyməti 5350 ABŞ dolları müəyyən edilib.

Açığı, Şeyxin qudasının az qala hər il Həccə getməsinin səbəbini anlamaqda çətinlik çəkirik. Hər dəfə bu ziyarət kifayət qədər böyük məbləğə başa gəlir. Üstəlik, Hacı Qalib etiraf edib ki, heç vaxt Həccə tək getmir, hər dəfə yaxınlarından bəzilərini də özü ilə aparır. Yəni sabiq deputat hər dəfə bu ziyarət üçün kifayət qədər pul xərcləyir.

Halbuki ölkədə minlərlə ailənin həmin pula ehtiyacı var. O pulla ağır sosial-iqtisadi şəraitdə yaşayan nə qədər insanın qarnını doyurmaq, dava-dərman xərcini qarşılamaq, onlara əl tutmaq, problemlərinin həllinə dəstək vermək mümkündür. Hacı Qalib, şübhəsiz ki, bunu bilir.

Onu da bilir ki, bir yoxsulun, imkansızın qarnını doyurmağın savabı elə Həcc ziyarətində qazanılan savaba bərabərdir. Dinimiz də belə buyurur.

Bəs onda Hacı Qalib niyə savabı hər il Həccdə axtarır?

Axı Qurani-Kərim namazı və insanlara yaxşılıq etməyi eyni sırada qərar verib, hər ikisini də əmr edib. Quran təlimində Allahın yaratdıqlarına xidmət etmək çox sayda savaba və dəyərə malikdir. Hətta bəzi hədislər insanlara xidmət etməyi əksər müstəhəb əməllərdən, eləcə də müstəhəb həcc və ümrədən üstün hesab edib. Əlbəttə, burada söhbət hər bir müsəlmana ömründə bir dəfə vacib olan Həcc ziyarətindən getmir, bu əməli bəzi səbəblərdən təxirə salmaq mümkündür, lakin əvəzləmək mümkün deyil. Daha çox ikinci, üçüncü dəfə Həcc ziyarətinə getmək - yəni nafilə Həcclərin əvəzində savab işlər görülməsi tövsiyyə olunur.



Elə isə Hacı Qalibin hər il baş qaldıran ziyarət sevdasına nə gərək var?

Az qala ildə iki dəfə təhsil haqqını ödəyə bilməyənlərin imtahanlara buraxılmaması ilə bağlı müxtəlif universitet tələbələrindən şikayətlər olunur. Tələbələrin əksəriyyəti təhsil haqqının bir hissəsini ödəyə bilmədiyi üçün universitet tərəfindən semestr imtahanlarına buraxılmadığını bildirirlər. Bu cür tələbələrə dəstək olmaqla Həcc savabı qazanmaq mümkündür axı...

Ölkədə çoxsayda uşaq evləri, qadın sığınacaqları var ki, onlara ianələr etməklə Həcc savabı qazanmaq mümkündür axı...

Sosial şəbəkələrdə xəstəliyin müalicəsi üçün kömək istəyənlərə, yaxud belə xəstələrə dəstək məqsədilə yardım çağırışlarına, kampaniyalara tez-tez rast gəlirik. Məgər bu çağırışlara səs verməklə, bu xeyirxah təşəbbüslərə qoşulmaqla da savab qazanmaq olmazmı?

Bəli, Həccə bir dəfə getmək buna imkanı çatan hər bir müsəlman üçün fərzdir, vacibdir. Lakin hər il ziyarətə yollanmaq, yəni nafilə Həcclər nəyə gərəkdir?

Bəlkə bu suala Şeyxin qudasının bizim indiyədək agah olmadığımız bir cavabı var, elə isə həmin cavabı məmnuniyyətlə dinləmək istərdik. Necə deyərlər, bilmək eyib deyil, öyrənməmək eyibdir...

***Sənan Mirzə***

## 6.3.15. dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi;

# Qarabağda kilsələr də qorunacaq

### Ceyhun Məmmədov: "Bizim Qarabağdakı hansısa dini abidəni dağıtmaq niyyətimiz yoxdur. Bu Azərbaycanın dövlət siyasətidir".

***İşğaldan azad olunmuş torpaqlarımızda quruculuq işləri böyük səylə davam edir. 30 ilə yaxın işğal müddətində düşmən nəinki evləri, infrastrukturu, tarixi abidələri, məscid və kilsələri də dağıdaraq viran qoyub. Torpaqlarımızda aparılan quruculuq işləri zamanı həm məscidlərimizin, həmçinin də işğaldan azad edilmiş ərazilərimizdə böyük tarixə malik kilsələrin necə təmir ediləcəyi zaman-zaman müzakirələrə səbəb olur. Hətta mənfur düşmən azad etdiyimiz torpaqlarımızda kilsələrin dağıdılacağı barədə həqiqətəuyğun olmayan informasiyalar yayırlar.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi



Deputat Ceyhun Məmmədov "Unikal"a açıqlamasında bildirib ki, Azərbaycandakı multikulturalizm modeli işğaldan azad olunmuş ərazilərdə də tətbiq olunacaq. Onun sözlərinə görə, Azərbaycan sözdə deyil, əməldə bütün dini abidələrə hörmət etmək və qorumağın nə demək olduğunu dünyaya göstərir. Həmsöhbətimiz deyir ki, respublikamızda bütün etnik qrupların sülh və əmin-amanlıq içində yaşamasının səbəblərindən biri də budur: "Azərbaycan tolerant ölkədir. Bizdə bütün dinlərə bərabər münasibət var. Baxmayaraq ki, ermənilər uzun illər bizə qarşı düşmən münasibəti bəsləyirlər, biz Bakının mərkəzindəki erməni kilsəsinə toxunmamışıq. Toxunmaq fikrimiz də yoxdur. Bu münasibət Qarabağda olan kilsələrə qarşı da olacaq. Burada bir məqamı nəzərə almaq lazımdır ki, Qarabağdakı kilsələr əvvəl alban kilsəsi olub. Sonradan saxtalaşdırılaraq erməni kilsəsi adı altında təqdim olunub. Azərbaycanda dinindən asılı olmayaraq hər kəsə eyni şərait yaradılır, heç bir məhdudiyyət qoyulmur. Azərbaycanda bu gün 30 minə yaxın erməni yaşayır. Biz bütün xalqlara qarşı eyni münasibət bəsləyirik. Bizim Qarabağdakı hansısa dini abidəni dağıtmaq niyyətimiz yoxdur. Bu Azərbaycanın dövlət siyasətidir".

Qeyd edək ki, Azərbaycanda hazırda məscidlərlə yanaşı, kilsələr və alban məbədləri də bərpa olunur. Düşmənin barbar siyasəti isə göz önündədir. Azərbaycanın Xocavənd rayonunda erməni işğalı zamanı demək olar ki, tamamilə dağıdılmış pravoslav kilsəsinin şəkilləri bunu sübut edir.

Məlumat üçün xatırladaq ki, prezident İlham Əliyev də öz çıxışlarında bu məsələyə toxunub. Prezident bildirib ki, azad edilmiş torpaqlarda xristian məbədləri ilə bağlı narahat olmağa dəyməz: "Müharibə başa çatandan sonra artıq Qərb dairələrindən bəzi Qərb liderləri məsələ qaldırırlar ki, bəs, Azərbaycanın nəzarətinə keçən azad edilmiş torpaqlarda xristian məbədləri necə olacaq? Həm mənimlə söhbət zamanı, həm rəsmi bəyanatlarda narahatlıq ifadə edirlər. Heç kim narahat olmasın, xüsusilə Qərb dövlətlərinin liderləri, hansılar ki, islamofob hissləri alovlandırırlar. Hansılar ki, İslam müqəddəslərinin təhqirlərinə göz yumurlar və hətta onları təhqir edənlərə bəraət qazandırırlar. Onların haqqı yoxdur bu barədə danışmağa, bu, birincisi. İkincisi, bizim ərazimizdə olan bütün məbədlər tarixi sərvətimizdir. Azərbaycanda hər il Bakı Humanitar Forumu, ya da ki, Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Azərbaycanda dünya dinlərinin liderlərinin Zirvə görüşləri keçirilib. Baxın, görün, nələr deyilib bizim haqqımızda. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda İslam dininə olan münasibəti örnək kimi göstərir. Rusiya Pravoslav Kilsəsinin patriarxı Kiril Bakıda olarkən Azərbaycanda bu sahədə görülmüş işlərə yüksək qiymət verib, Pravoslav kilsələrində olub. Roma Papası Fransisk Bakıda olarkən rəsmi çıxışında Azərbaycanda tolerantlıq, dini dözümlülük, multikulturalizm haqqında danışıb. Kim bizə irad tuta bilər? Məscidləri bağlayan? Yaxud da ki, müsəlman məscidlərinə öldürülmüş donuzların başlarını atan bizə dərs deyəcək, narahatlıq ifadə edəcək? Bizə heç bir narahatlıq ifadə etmək lazım deyil. Bizim bütün tarixi abidələrimiz dövlət tərəfindən qorunur. Mənim göstərişimlə və dövlət vəsaiti hesabına hazırda iki pravoslav kilsəsi təmir edilir, üçüncü kilsə isə təmir olunub. İnzibati bina tikilir. Müharibə dövründə udi qardaşlarımızın kilsəsi Heydər Əliyev Fondu tərəfindən təmir olunaraq istifadəyə verilib. Bizim Qafqaz Albaniyası kilsələri milli sərvətimizdir. Gürcü kilsələrimiz, erməni kilsəsi. Vəhşi düşmən bax bu məsciddə inək saxlayıb, donuz saxlayıb. Bu şəkillər var internetdə. Azad edilmiş Zəngilan məscidində, Cəbrayıl məscidində donuz saxlayıb."

Qeyd edək ki, , ölkəmizdə olan abidələr və ibadət yerləri, kilsələr Azərbaycan dövləti tərəfindən tam mühafizə edilir və mütəmadi olaraq bərpa edilir. Rus Pravoslav Baş Kafedral Kilsəsi, "Xilaskar" Yevangelik-lüteran kilsəsi, Gəncədəki Aleksandr Nevski Rus Pravoslav Kilsəsi dövlət tərəfindən təmir olunub, Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi inşa edilib. Qəbələdəki Çotari alban-udi və Bakıdakı Pravoslav kilsələrinin təmiri, Bakıdakı Müqəddəs Məryəm kilsəsinin inşası Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində reallaşdırılıb. O cümlədən, Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpa edilib. Bakı şəhərinin mərkəzində Azərbaycan dövləti tərəfindən erməni kilsəsi bərpa edilib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Jurnalistlər üçün təlim keçirilir

***Medianın İnkişafı Agentliyi (MEDİA) və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi jurnalistlər üçün təlimlər keçirir.***

"Unikal" xəbər verir ki, "Mediada gender bərabərliyi və peşəkarlıq" adlı təlim iki gün davam edəcək.

Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova və Agentliyin Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli təlimi girişi sözü ilə açıblar.

Təlimdə BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsinin sədr müavini, hüquq üzrə fəlsəfə doktoru Elgün Səfərov, MEDİA-nın nümayəndəsi Pərvanə İbrahimova, media eksperti Aynur Bəşirli, hüquq müdafiəçisi, Konstitusiya Araşdırmalar Fondunun sədri Əliməmməd Nuriyev və başqaları müxtəlif mövzularda çıxış edəcəklər.

Sonda iştirakçılara sertifikatlar veriləcək.

# Hərbçilərimiz "Efes-2022" təlimində

***Türkiyənin İzmir şəhərində keçirilən "Efes-2022" çoxmillətli təlimində növbəti mərhələnin tapşırıqları yerinə yetirilib.***

Bu barədə "Un ikal"a Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib. Beynəlxalq təlimin planına uyğun olaraq iştirakçılar şərti terror dəstəsi tərəfindən avtomobilə yerləşdirilən partlayıcı qurğunun aşkar olunaraq zərərsizləşdirilməsi, helikopterlər vasitəsilə şərti düşmən obyektinə aviazərbələrin endirilməsi, dəniz piyadalarının sahil xəttinə çıxması və yüksəkliklərin ələ keçirilməsi, həmçinin axtarış-xilasetmə əməliyyatı və yaralıların təxliyə olunması mərhələləri üzrə tapşırıqlar müvəffəqiyyətlə icra olunub.

Təlim iştirakçıları, eyni zamanda, zəbt olunmuş gəminin azad edilməsi və helikopterdən dəniz xüsusi təyinatlılarının gəmiyə enməsi üzrə fəaliyyətləri də müvəffəqiyyətlə yerinə yetiriblər.

Əlahiddə Ümumqoşun Ordunun və Hərbi Dəniz Qüvvələrinin hərbi qulluqçularının da iştirak etdiyi beynəlxalq təlim iyunun 9-dək davam edəcək.

# Bakıda Beynəlxalq Sosial Elmlər Konqresi keçirilir

***Azərbaycanda 7-ci Beynəlxalq Sosial Elmlər Konqresi öz işinə başlayıb.***

"Unikal" xəbər verir ki, tədbir 2-4 iyun tarixində Bakıda keçiriləcək. Tədbirdə xüsusi qonaq olaraq Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop və Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova iştirak edir.

Konqresdə Qarabağın işğaldan azad edilməsi və Xocalı qətliamı kimi məsələlərə diqqət yetiriləcək.

Qeyd edək ki, geniş elmi mövzuları əhatə edən beynəlxalq simpozium təşkil etməklə universitetlər və ölkələr arasında əməkdaşlığı artırmaq, Azərbaycan və Türkiyə alimlərinin hazırladıqları elmi araşdırmaların xaricdə təmsil olunmasını təmin etmək və bu münasibətlə elmə töhfə vermək hədəf olaraq seçilib.

Bundan əlavə, bölgəni tanıtmaq üçün planlaşdırılmış elmi və ictimai səfərlər həyata keçiriləcək. Konqresdə iştirak edəcək alimlərin Azərbaycanın tarixi, mədəni və dini yerlərini görərək, öz sahələrində yeni perspektivlər yarada bilmələrinə şərait yaradılacaq.

Konqresin birinci mərhələsində qəbul edilən məruzələr təqdim olunacaq. İkinci mərhələdə Azərbaycanın və Qarabağ bölgəsinin tarixi və müqəddəs yerləri ziyarət ediləcək. Üçüncü mərhələdə konqresdə təqdim olunan məruzələrin tam mətnləri, qurultay və regionun şəkillərindən ibarət kitab hazırlanaraq həm çap, həm də onlayn olaraq xüsusi buraxılış kimi aidiyyəti şəxslərin diqqətinə təqdim olunacaq.

İctimai elmlərin bütün sahələrinə açıq olacaq bu konqresdə xüsusi mövzu olaraq Qarabağ seçilib. Bundan əlavə, Şuşa, Füzuli kimi tarixi şəhərlərin, Xocalı soyqırımı kimi mövzuların xüsusi araşdırılması planlaşdırılır.

# Bələdiyyə sədrinin işi məhkəməyə göndərildi



***2015-2019-cu illərdə Quba rayonu, Tüləkəran bələdiyyəsinin sədri vəzifəsində işləyən Laləzər Heybətovanın qanunsuz əməlləri ilə bağlı rayon prokurorluğuna daxil olmuş vətəndaş müraciəti əsasında Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işinin ibtidai istintaqı tamamlanıb.***

Quba rayon prokurorluğundan verilən məlumata görə, Laləzər Heybətova bələdiyyə sədri vəzifəsində işləyərkən öz qulluq mövqeyindən tamah niyyətilə istifadə edərək guya bələdiyyə ərazisində yaşayan şəxslərə maddi yardımın ayrılmasına, yol təmir-bərpa işlərinin görülməsinə görə xidmət haqqının ödənilməsinə dair rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil edib.

L.Heybətova bununla bələdiyyənin qanunla qorunan mənafeyinə 16 min 547 manat məbləğində maddi zərər vurub.

Toplanmış sübutlar əsasında Laləzar Heybətovaya Cinayət Məcəlləsinin 178.2.2 (təkrar dələduzluq), 179.2.3, 179.2.4 (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə xeyli miqdarda ziyan vurmaqla mənimsəmə), 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və digər maddələri ilə yekun ittiham elan edilib.

Cinayət işi baxılması üçün aidiyyəti üzrə Quba rayon məhkəməsinə göndərilib.

# Sədərək Ticarət Mərkəzi sökülür? - RƏSMİ AÇIQLAMA




***Sədərək Ticarət Mərkəzinin sökülməsi ilə bağlı sosial şəbəkələrdə yayılan videogörüntülər həqiqəti əks etdirmir.***

"Unikal" xəbər verir ki, bunu Trend-ə Sədərk Ticarət Mərkəzinin İdarə Heyəti sədrinin müşaviri Mikayıl Qədimov bildirib. O bildirib ki, yayılan məlumatlar yalandır.

"Ticarət Mərkəzinin sökülməsindən söhbət gedə bilməz. Yayılan videoda ticarət mərkəzinin cərgələrində aparılan təmir işləri əks olunub. Ticarət mərkəzindəki cərgələrdə olan dükanların qarşısı təmizlənir, mağazaların giriş hissəsinə şüşə vitrinlər quraşdırılır. Bu o məqsədi daşıyır ki, mağazaların içərisindəki mallar kənardan görünsün və müştəriləri daha tez cəlb etsin. Həmçinin havaların isti keçməsi ilə bağlı yanğın təhlükəsizliyi məqsədilə ərazi təmizlənir", - deyə Mikayıl Qədimov bildirib.

Xatırladaq ki, sosial şəbəkələrdə Sədərək Ticarət Mərkəzindən paylaşılan videoda adıçəkilən mərkəzin sökülərək köçürülməsi ilə bağlı fikirlər səsləndirilib.

# ETSN "Uşaq festivalı"nda öz stendi ilə təmsil olunub

***1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar Heydər Əliyev Mərkəzinin qarşısında keçirilən "Uşaq festivalı"nda Ekologiya və Təbii Sərvətlər Nazirliyi də öz stendi ilə iştirak edib.***

Ekoloji maarifləndirmə və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Səyyarə Məmmədova "Unikal"a bildirib ki, tədbir zamanı uşaqlara ətraf mühitin mühafizəsi, biomüxtəlifliyin qorunmasının vacibliyi, sudan səmərəli istifadə, tullantıların çeşidlənməsinin əhəmiyyəti barədə məlumat verilib və onları maraqlandıran suallar cavablandırılıb. Daha sonra uşaqlar ekokönüllülər tərəfindən onlara hədiyyə olunan ekoçantalar üzərində rəngli boyalarla öz çantalarını dizayn ediblər, eyni zamanda təbiətə aid müxtəlif rəsm əsərləri çəkiblər.

S.Məmmədovanın sözlərinə görə, tədbir çərçivəsində uşaqlar üçün viktorina keçirilib, onlara ətraf mühitin mühafizəsinə dair müxtəlif yaş kateqoriyalarını əhatə edən kitablar hədiyyə olunub.

# Xaricdə təhsil alan 31 həkim işə qəbul olundu

***Tibb müəssisələrində kadr çatışmazlığını aradan qaldırmaq və vətəndaşlara göstərilən tibbi xidmətlərin keyfiyyətini artırmaq məqsədilə xaricdə təhsil almış 31 həkim-mütəxəssis Bakı və Sumqayıt şəhərlərində yerləşən tibb müəssisələrində işə qəbul olunub.***



Bu barədə "Unikal"a İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən məlumat verilib.

Qeyd olunub ki, işə qəbul prosesi Agentliyin icra etdiyi "Tibb müəssisələrində ixtisaslı kadr çatışmazlığının aradan qaldırılmasına dair 2022-2023-cü illər üçün Proqram" çərçivəsində təşkil olunub.

İşə cəlb olunanlar Türkiyədə təhsil almış və əsasən pediatrik, terapevtik, cərrahi və radioloji profillər üzrə ixtisaslaşmış həkimlərdir. Sözügedən mütəxəssislər TƏBİB-in tabeliyindəki tibb müəssisələrində işlə təmin olunublar. Həkim-mütəxəssislər eyni zamanda xarici təcrübənin, müasir müayinə-müalicə metodlarının yerli kadrlara öyrədilməsini, həkimlərin nəzəri bilik və praktik vərdişlərinin yaxşılaşdırılmasını həyata keçirəcəklər.

Qeyd edək ki, mövcud vakansiyalar üzrə ümumilikdə 103 nəfər müraciət edib. Namizədlər arasında cərrahiyyə, terapiya, pediatriya, mamalıq-ginekologiya, anesteziologiya və reanimotologiya ixtisasları üzrə təhsil almış mütəxəssislər çoxluq təşkil edib. Mütəxəssislərə eyni vaxtda 3 tibb müəssisəsinə müraciət etmək imkanı verilib.

Ölkə xaricində oxuyan həkimlərin işə qəbul prosesi 2 mərhələdə həyata keçirilib. Birinci mərhələdə elanda göstərilən sənədləri tam təqdim edən şəxslər seçdikləri bir və ya bir neçə tibb müəssisəsinin müvafiq komissiyasının qəbulunda iştirak edib. Bu mərhələdən müvəffəqiyyətlə keçən namizədlər Agentliyin Komissiyasının qəbuluna göndərilib. Namizədlərin qiymətləndirilməsi 6 meyara əsasən aparılıb. Bunlara iş təcrübəsi, yüksək reytinqli ali təhsil müəssisəsində təhsil, müasir cihaz və prosedurlarla işləmə bacarığı, ixtisasartırma təhsili, elmi dərəcə və elmi ad, habelə beynəlxalq konfranslarda iştirak daxildir.

# Bakıda sığınacaqda uşaqlara işgəncə verildi

***Bakıda sığınacaqda uşaqlara uşaqlara əzab verilib. Bu barədə "Unikal"a Sabunçu Rayon Prokurorluğundan məlumat verilib.***



Bildirilib ki, rayonun Bakıxanov qəsəbəsində yerləşən sığınacaqda 10.05.2022-ci il tarixdə müxtəlif dövlət orqanlarının iştirakı ilə keçirilən monitorinq zamanı uşaqların bədəni üzərində xəsarət izlərinin aşkar olunması faktı ilə bağlı Sabunçu Rayon Prokurorluğunda araşdırma aparılıb.

Aparılan araşdırmalarla qeyd edilən sığınacaqda 2022-ci ilin fevral ayının sonundan may ayının əvvəlinə qədər saxlanılan C.M.-nın (ad, soy adı şərti) sığınacaqda qaldığı müddətdə müxtəlif psixi və fiziki zorakılığa məruz qaldığı, həmçinin onun sığınacaqdakı digər azyaşlılara da psixi və fiziki zorakılıq göstərilməsinə şahid olduğu müəyyən edilib, o cümlədən sığınacaqda saxlanılan digər iki nəfər azyaşlının bədəni üzərində orada saxlandıqları tarixlərə yetirilməyə uyğun gələn xəsarət izləri aşkarlanıb.

Fakta görə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 309.1 (vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etməsi dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda), 133.2.1 (iki və ya daha çox şəxsə qarşı əzab vermə) və 133.2.4-cü (təqsirkar şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan, habelə köməksiz vəziyyətdə olan şəxsə qarşı əzab vermə) maddələri ilə cinayət işi başlanılıb.

Hazırda istintaq davam edir.

# Məktəblərdə bu qədər müəllimə ehtiyac var - Vakant yerlərin sayı



***"Adətən müəllimlərin işə qəbulu müsabiqəsinə (MİQ) 8 minə yaxın, bəzən 8 mindən çox vakant yer çıxarılır. Bu il də bu qədər vakant yerin olacağı gözlənilir".***

Bunu İnsan Resursları Mərkəzinin direktoru Nurlan İsmayılbəyli "Təhsil masası"nda deyib.

O bildirib ki, müddətsiz işə qəbulu üzrə müsabiqə bir turda keçiriləcək: "Müəllimlərə seçim edərkən bu amili nəzərə almalarını xahiş edirik. Əsasən musiqi, təsviri incəsənət, kimya, biologiya fənləri üzrə vakant yerlər çoxluq təşkil edir. Müəllimlər seçimdə 8 yer yaza biləcəklər".

# Mayda 756 nəfər zəhərlənib - 6-sı ölüb

***May ayı ərzində Kliniki Tibbi Mərkəzə zəhərlənmə ilə bağlı 756 nəfər müraciət edib.***

Mərkəzin Mətbuat xidmətindən "Unikal"a bildirilib ki, onlardan 137-si Toksikologiya şöbəsinə qəbul edilib, qalanlarına isə ilkin tibbi yardım göstərilərək evə buraxılıb.

Qəbul olan xəstələrdən 70-i dərmandan, 21-i sirkə turşusundan, 6-sı dəm qazından, 1-i göbələkdən, 12-si etil spirtindən zəhərlənib. Digərlərindən 1-i anaflaksiya səbəbindən, 12-si allergik reaksiyadan, 3-ü isə botulizm səbəbindən xəstəxanaya yerləşdirilib.

Həmçinin onlardan 9-nu ilan, 2-ni isə həşərat sancıb.

Zəhərlənən şəxslərin 56-sı qadın, 61-i kişi, 20-si isə uşaq olub. Həkimlərin səylərinə baxmayaraq, 137 nəfərdən 6-sı (3-ü kişi, 3-ü qadın) dünyasını dəyişib.

# ASC torpaqların əkinə yararlı hala gətirilməsi üçün tədbirlər görür

***Baş Şirvan Kollektorunda meliorativ tədbirlər davam edir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, Ölkədə torpaqların meliorativ cəhətdən yaxşılaşdırılması, uzun müddət istifadə olunmayan torpaqların əkinə yararlı hala gətirilməsi üçün Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən bir sıra işlər görülür.***

Bu işlər çərçivəsində Baş Şirvan Kollektorunun İstismarı İdarəsi tərəfindən kollektor drenaj şəbəkələrinin lildən təmizlənməsi davam edir. İdarə 11 nasos stansiyası ilə duzlaşmış və qrunt sularını Xəzər dənizinə axıdır.



Bununla da münbitləşən torpaqlarda kənd təsərrüfatı bitkilərinin əkini sürətlənir. Baş Şirvan Kollektorunun İstismarı İdarəsi tərəfindən balansda olan nasos stansiyalarda da təmir və sazlama işləri aparılır.

İdarə kollektor drenaj sistemlərinin lildən təmizlənməsini və onlar üzərində yerləşən hidrotexniki qurğuların cari və əsaslı təmirini həyata keçirmək üçün balansnda olan maşın-mexanizmlərdən istifadə edir. Sistemin lildən təmizlənmsi nəticəsində sahələrdə şoranlaşmanın qarşısı alınır. Kollektorlarda lildən təmizləmə işləri sistemli şəkildə aparılır. Əvvəlcə təsərrüfatdaxili kollektorlar lildən təmizlənir. Daha sonra təsərrüfatlararası və magistral kollektorlar lildən təmizlənərək qrunt suları maneəsiz olaraq ərazilərdən kənarlaşdırılır. 2022-ci ilin yanvar ayından bu vaxta qədər ümumilikdə 174 km uzunluqda lildən təmizləmə işləri aparılıb. Hazırda texnikalar vasitəsilə bir-neçə istiqamətdə bu işlər həyata keçirilir.

Qeyd edək ki, Baş Şirvan Kollektorunun İstismarı İdarəsi Ağdaş, Ucar, Göyçay, Kürdəmir, Sabirabad, Hacıqabul və Salyan rayonlarında ümumilikdə 253000 hektar əraziyə 2399 km drenaj və kollektor şəbəkəsi vasitəsilə xidmət göstərir.?

Salyanda sahələrin suvarılması mütəşəkkil aparılır, 66 nasos stansiya işlək vəziyyətdədir. Dilqəm Şərifov bildirib ki, Salyan rayonunda aparılan meliorativ tədbirlər hər il əkin sahələrindən bol məhsul əldə edilməsinə səbəb olur. Rayonda fəaliyyət göstərən su istifadəçilərinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması üçün Salyan Suvarma Sistemləri İdarəsi tərəfindən bir sıra tədbirlər görülür. Suvarma mövsümü öncəsi kanallarda lildən təmizləmə işləri aparılır, hidrotexniki qurğular və nasos stansiyalar təmir olunur. Buna misal olaraq idarə ötən il Yeni Muğan nasos stansiyasında Kür çayınının müvafiq səviyyəsinə uyğun əlavə bir ədəd nasos komplektinin quraşdırılması işlərini tamamlayaraq istismara verib. Su itkisinin qarşısını almaq məqsədilə torpaq məcralı suvarma kanalı 500 metr məsafədə, Akuşa-2 nasos stansiyasında isə su aparıcı kanal və su başlığı əsaslı təmir olunaraq 80 metr məsafədə beton üzlüyə alınıb.15 ədəd elektrik mühərriki əsaslı təmir olunaraq nasos stansiyalarda quraşdırılıb.

2022-ci ilin suvarma mövsümünə hazırlıq məqsədilə Salyan Suvarma Sistemləri İdarəsi uzunluğu 16 km olan və 3240 ha əkin sahələrinə xidmət göstərən suvarma kanalından 10 km məsafədə lildən təmizlənmə işləri aparıb. Həmin kanal üzərindəki 85 ədəd hidrotexniki qurğular əsaslı təmir olunub. İdarə üzrə ötən il ərzində 650 km suvarma kanallarında lildən təmizlənmə işləri yekunlaşıb, 85 ədəd hidrotexniki qurğu, 9 ədəd hidropost, 72 ədəd nasos aqreqatı, 15 ədəd elektrik mühərriki cari təmir olunub. Hazırda idarənin balansında olan torpaq məcralı kanalları bir-neçə istiqamətdə texnikalar vasitəsilə lildən təmizlənir.

Qeyd edək ki, Salyan Suvarma Sistemləri İdarəsi Salyan rayonunda 45897 ha əkin sahəsinə xidmət edir. İdarənin balansında 1182 km uzunluğunda suvarma kanalı mövcuddur. Suvarılmanın mütəşəkkil aparılması üçün 66 ədəd nasos stansiyadan istifadə edilir. Bundan 54 ədədi stasionar, 10 ədədi üzən, 2 ədədi isə səyyaridir.

Vəlvələçay hidroqovşağı vasitəsi ilə həm şimal rayonları suvarma suyu ilə həm də Bakı və Abşeron yarımadası içməli su ilə təmin edilir. Dilqəm Şərifov bildirib ki, Şimal bölgəsində xüsusi əhəmiyyətə malik qurğulardan biri Vəlvələçay Hidroqovşağıdır. Hidroqovşaq Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən əsaslı şəkildə təmir edilib. Qubanın Vəlvələ kəndində yerləşən qurğu 1968-ci ildə istismara verilib. Həmin dövrdə şimal rayonlarında kənd təsərrüfatı sahələrinin suvarılmasında ciddi çətinliklər mövcud idi. Məzh bu problemin həllinə nail olmaq üçün Vəlvələçay üzərisində suayırıcı qovşaq inşa edilib. Sovetlər dönəmində qovşaqdan yalnız suvarma məqsədi ilə istifadə edilib. Hazırda isə Vəlvələçay hidroqovşağı vasitəsi ilə həm şimal rayonları suvarma suyu ilə həm də Bakı və Abşeron yarımadası içməli su ilə təmin edilir. Uzun illər istismarda olan qurğunun təmirə ehtiyacı vardı. Bu səbəbdən də hidroqovşağın yerləşdiyi ərazi və quğunun özü tam şəkildə yenidən qurulub. Aparılan yenidənqurma işləri nəticəsində əvvəllər kənarları açıq vəziyyətdə olan hidroqovşaq hasara alınıb. Ərazidə yeni inzibati bina tikilib, müasir standartlara uyğun asvalt yol çəkilib. Həmçinin ərazidə yeni ağaclar əkilib, yaşıllıqlar yaradılıb.

Aparılan təmir işləri zamanı ərazidə avtomat rejimdə işləyən işıqlandırma sistemi qurulub. Müasir işıqlandırma sistemi gecə saatlarında hidroqovşaq ərazisini işıqlandırmaqla yanaşı həm də qurğuya xüsusi gözəllik bəxş edir.

***Hüseyn İsgəndərov***



# Tarix yazan igid - Şəhid Elmir Məmiyev

***Elmir Zamin oğlu Məmiyev 19 yaşında Vətən torpaqlarının azadlığı və bütövlüyü uğrunda canından keçdi. Bununla da Yardımlı rayonunun Kürəkçi kəndində dünyaya göz açan igid bütün Azərbaycanın qürur, iftixar yerinə çevrildi. Əbədidir Elmirin qısa həyat yolu. Qərinələr keçəcək, gələcək nəsillərdə Vətənə, torpağa sevgi nümunəsi olacaqdır.***

Elmir özünü biləndən sonra birinci növbədə əlinə silah alıb döyüş meydanında erməni cəlladlarını əzmək ürəyindən keçir. 2020-ci ildə o, həqiqi hərbi xidmətdə olur. Müqəddəsliyinə tapındığı doğma Azərbaycanın keşiyində sədaqətlə, etibarla durur, onun qeyrətini hər şeydən üstün tutur. Düşmənə əsir düşən Qarabağın taleyini düşünməklə bütün təlimlərdə döyüş igidliyinə görə fərqlənir. Vətən yolunda hər zaman canını belə qurban verməyə hazır olan Elmir İkinci Qarabağ müharibəsi başlanan gündən döyüş meydanına atılır. Dağlar diyarının qartal balası ölümə meydan oxumaqla düşmənin bağrına çat salan bir igid kimi ad qoyur. Dığalara sarsıdıcı zərbələr vurmaqla, qısa ömrünün qəhrəmanlıq tarixini yaradır. Və hər ölüm-dirim haqq savaşında göstərdiyi misilsiz şücaəti zəfər günümüzdən soraq verir.

2 oktyabr 2020-ci ildə Ağdamın azadlığı uğrunda şiddətli döyüşlər başlanır. Adəti üzrə yenə də Elmir cəsarətlə döyüşün önündə gedir, əsgər yoldaşlarını hücuma səsləyir. Bir neçə saatlıq gərgin vuruşmadan sonra düşmən təslim olur. Təəssüf ki, Elmir qəfil açılan gülləyə tuş gəlir. Tanrının qismətinə yazdığı şərəfli ölümü ilə Vətən olan sonsuz məhəbbətini polad sinəsini ona sipər etməklə bir daha bildirir...

Qəhrəman Elmir cismən aramızdan gedib. Şəhidlik zirvəsindən gələcəyə boylanan bu Vətən sevdalısının adı hər yerdə, hər zaman xalqın dilində böyük iftixarla çəkilir. Dövlət tərəfindən müharibə meydanında igidlik, mərdlik göstərdiyinə görə " Vətən uğrunda" medalı ilə təltif edilənlər arasında şəhid Elmir Zamin oğlu da var.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Şəhidin azyaşlı qardaşı vəfat etdi

***Siyəzən rayonunda bədbəxt hadisə baş verib.***

Evdə yemək yediyi zaman özünü narahat hiss edən 13 yaşlı Rəfiyev Məhəmməd Musa oğlu Siyəzən Regional Müalicə Diaqnostika mərkəzinə gətirilib. Həkimlərin səyinə baxmayaraq azyaşlının həyatını xilas etmək mümkün olmayıb.

Onun meyiti tibbi ekspertizadan keçirilməsi üçün Bakıya aparılıb. Ölüm səbəbi ekspertizanın nəticəsindən sonra məlum olacaq. Faktla bağlı araşdırma davam etdirilir.

Qeyd edək ki, dünyasını dəyişən azyaşlı Vətən müharibəsi şəhidi Seyfəl Rəfiyevin qardaşıdır.

# Bu ölkə "Taliban"la danışıqlara başladı



***Hindistan xarici işlər nazirliyinin rəsmiləri hakim "Taliban" hərəkatının yüksək rütbəli üzvləri ilə danışıqlar aparmaq üçün Əfqanıstanın paytaxtı Kabilə gedib.***

"Unikal" xəbər verir ki, bu barədə "Reuters" Hindistan XİN-ə istinadən məlumat yayıb.

Qeyd olunub ki, bu, ABŞ-ın keçən il xaotik şəkildə geri çəkilməsindən sonra ilk belə görüşdür: "Yaraqlıların hakimiyyəti ələ keçirməsindən sonra qarşıdurmaların yaşandığı ölkədə yoxsulluq və aclıq sürətlə artıb. Hindistan "Taliban"ın yüksək rütbəli üzvləri ilə görüşəcək və Hindistanın Əfqanıstan xalqına humanitar yardımı ilə bağlı müzakirələr aparacaq".

***Ağarza***

# Rusiyanın kamikadze dronu zərərsizləşdirildi

***Ukrayna hərbçiləri Rusiyanın ən son yüksək dəqiqliyə malik kamikadze pilotsuz təyyarəsini zərərsizləşdirib.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Bildirilir ki, dron 128 briqada tərəfindən zərərsizləşdirilib.

"Rusiyanın yüksək dəqiqlikli pilotsuz uçuş aparatı "Kalaşnikov" konserni tərəfindən hazırlanıb və ilk dəfə 2019-cu ildə təqdim edilib. O, havada asılıb şaquli dalışla hədəfə hücum edə bilir. Kub-u kamikadze dron da adlandırırlar, çünki buraxıldıqdan sonra o, operatora qayıtmır və hədəfi vurur və ya suya dalır, ya da paraşütlə düşür, lazımi anı gözləyir və partlayır", - deyə məlumatda bildirilir.

***Gülayə Mecid***

# Ukrayna Rusiyanın itkilərini açıqladı

***Rusiya Silahlı Qüvvələri (SQ) indiyədək Ukraynada 30 850 nəfər canlı qüvvə itirib.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı məlumat yayıb.

Bildirilib ki, iyunun 2-nə olan məlumata görə, Rusiya SQ-nin itkiləri 1363 tank, 3354 zirehli maşın, 661 artilleriya sistemi, 207 reaktiv yaylım atəşi sistemi, 95 hava hücumundan müdafiə vasitəsi, 210 təyyarə, 175 helikopter, 521 operativ-taktiki PUA, 120 qanadlı raket, 13 gəmi/qayıq, 51 xüsusi texnika təşkil edib.

"Ötən sutka ərzində düşmənin ən böyük itkisi Baxmutov istiqamətində qeydə alınıb", - Ukrayna Baş Qərargahının məlumatında deyilir.

# Britaniya Ukraynaya reaktiv raketlər göndərəcək

***Böyük Britaniya Ukraynaya reaktiv yaylım atəşi sistemləri göndərəcək.***

"Unikal" CNN-ə istinadən xəbər verir ki, bu barədə Britaniyanın müdafiə naziri Ben Uolles bildirib.

Britaniya Xarici İşlər Nazirliyi açıqlamasında bildirib ki, onlar 80 kilometrə qədər məsafədəki hədəfləri vura bilən "M270" raketlərini göndərəcək.

***Ağarza Elçinoğlu***

# Türkiyə ordusu 14 terrorçunu zərərsizləşdirdi

***Türkiyə Silahlı Qüvvələri İraqın şimalında PKK terror təşkilatının 14 silahlısını zərərsizləşdirib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

# Putinin dostu Merkeldən Ukraynaya dəstək

***Rusiyanın müstəqil Ukraynaya genişmiqyaslı hərbi müdaxiləsinin dördüncü ayında Almaniyanın keçmiş kansleri Angela Merkel Ukraynanı dəstəkləyib.***

"Unikal" "Reuters"a istinadən xəbər verir ki, keçmiş kansler bu bəyanatı Almaniya həmkarlar ittifaqı konfederasiyasının rəhbəri ilə vida mərasimində verib.

"Mən bu müharibədə Ukraynanı dəstəkləyirəm", - Merkel deyib.

O, həmçinin Almaniya hökumətinin Ukraynaya yardım səylərini və vəziyyəti həll etmək səylərini dəstəklədiyini bildirib.

Məlumata görə, Merkel ABŞ və bir sıra digər ölkələr tərəfindən Rusiyaya qarşı siyasətinin tənqidi, o cümlədən "Şimal axını-2" layihəsinə dəstək fonunda yaranmış vəziyyətə münasibətindən danışıb.

Eyni zamanda, Almaniyanın keçmiş kansleri Ukrayna ilə bağlı gələcək addımlarla bağlı hazırkı hökumətə hər hansı məsləhət verməkdən imtina edib.



Qeyd edək ki, Qərb mətbuatında yer alan xəbərlərə görə, Merkelin Putinlə yaxın dostluğu uzun illərdir davam edir.

***Gülayə Mecid***

# Fransa kəşfiyyatının analitikləri Rusiyaya işləyir

***"Xüsusi əməlliyat"ın ilk üç ayının təbliğat savaşını uduzan Rusiya Henri Kissincer kimi "ağır artilleriya"sını işə salaraq, öz maraqlarını müdafiə edən şəxs və qurumları bir-bir bəlli etməyə başlayıb. Fransa Kəşfiyyat Araşdırmaları Mərkəzi (SF2R) də bu qəbildəndir.***

Mərkəzin bu yaxınlarda yaydığı araşdırmanın ümumi narrativi belədir ki, guya Ukraynada "Rusiya ordusunun məğlubedilməzliyi" ön plana çıxır. Olivye Düjardenin hazırladığı analitik hesabatda bildirilir ki, Ukrayna Silahlı qüvvələri Donbass istiqamətində hər-hansı əks-hücum və ya geniş əməliyyat keçirmək iqtidarında deyil.

Maraqlısı odur ki, taktiki və strateji vəziyyəti izah edən Düjarden sadaladığı səbəblər sırasında Rusiya mediasından götürülmüş hazır təbliğat klişelərindən istifadə edir. Yani, hazır təlimatları gerçəkləşdirməklə məşquldur. Bunların içində yer alan "xüsusi əməliyyat uğurla davam edir", "Rusiya hərbi-sənaye kompleksi tam müstəqil şəkildə fəaliyyət göstərə bilər", "Ukrayna əsgərləri təcrübəsizdir" kimi tezislər hərbi-siyasi analitiklərinin xüsusi diqqətinə səbəb olub.

Hesabatda qeyd olunan fikirlər və analiz manipulyasiya xarakterlidir, çünki onun mayın 22-də dərc olunmasından sonra Ukrayna ordusu qeyd olunan istiqamətlər üzrə bir neçə genişmiqyaslı və uğurlu əks-hücum keçirib.

Bundan əlavə, məhz hərbi-sənaye kompleksi istiqamətində tətbiq edilən müxtəlif sanksiyaların təsirindən Rusiya ordusu ehtiyat hissələrsiz və tələb olunan texnologiyalarsız qalıb. Məsələn, "Uralvaqonzavod" Elmi-



Sənaye Kompleksinin son "layihəsi" - konservasiyadan çıxarılan köhnə PDM-lərin üzərinə... "ZTR-82A" qülləsinin quraşdırılması və bu "frankenşteyn"lərin boyanaraq cəbhəyə göndərilməsi bunu sübut edir. "PDM-1K" (BMP-1K) adı almış bu mutant Rusiya Silahlı Qüvvələrinin Ukraynada itirdiyi 2700-ə yaxın zirehli maşını qismən əvəz etməlidir.

SF2R birinci dəfə deyil ki, Rusiya təbliğatına yaxın hesabat dərc edir. Bu səbəbdən mərkəzin bir neçə işçisi istefa versə də, təşkilat fəaliyyətini davam etdirir. Bu fəaliyyətin kimin maliyyə dəstəyi hesabına baş tutması isə, artıq sirr deyil(azvision).

# Rəisi Paşinyanı İrana dəvət etdi

***Ermənistanın baş naziri Nikol Paşinyanla İran İslam Respublikasının prezidenti İbrahim Rəisi arasında telefon danışığı olub.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV-ləri məlumat yayıb.

Həmsöhbətlər xüsusilə regional kommunikasiyaların açılması, Ermənistanla Azərbaycan arasında dövlət sərhədinin delimitasiyasına başlanması, Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.



Telefon danışığında ikitərəfli gündəliyə aid məsələlər də müzakirə olunub. Ermənistan-İran üçüncü elektrik xəttinin, Şimal-Cənub magistralının tikintisi, enerji sektoru ilə bağlı məsələlərə xüsusi diqqət yetirilib. Həmsöhbətlər bir-birlərini rəsmi səfərə dəvət etdiklərini təsdiqləyiblər və iki ölkənin paytaxtlarına qarşılıqlı səfərlər etmək barədə razılığa gəliblər.

***Gülayə Mecid***

# Dmitri Karamarenko: “Azərbaycanın ilk oyunu səfərdə keçirməsi yaxşıdır”



***Azərbaycan millisinin sabiq qapıçısı və qapıçı-məşqçisi Dmitri Karamarenko Qazaxıstan mətbuatına müsahibə verib.***

Apasport.az saytının məlumatına görə, təcrübəli mütəxəssis Millətlər Liqasının qrup mərhələsi çərçivəsində sabah baş tutacaq Qazaxıstan - Azərbaycan matçını dəyərləndirib.

Hazırda Moskva MOİK-ində qapıçılarla işləyən məşqçi kimi çalışan Kramarenko yığmamıza azarkeşlik edəcəyini söyləyib.

***- Qazaxıstan və Azərbaycan yığmaları Millətlər Liqasının yeni mövsümünü Nur-Sultanda keçiriləcək oyunla açır. Mövsümə səfərə başlamaq Azərbaycan üçün müsbət, yoxsa mənfi haldır?***

- Oyun gərgin, maraqlı keçəcək. Millilərimiz arasında matçlar həmişə maraqlı, kifayət qədər gərgin alınır, bu və ya digər tərəf üçün asan olmur. Prinsipcə, ilk oyunu səfərdə keçirmək daha yaxşıdır.

***- Vaxtilə yoldaşlıq görüşündə Qazaxıstana qarşı çıxış etmisiniz. Həmin matçdan təəssüratlarınız necədir?***

- Onda 3:2 hesabı ilə qalib gəldik, təəssüratlar ən yaxşısı idi. Stadion dolu idi, Qazaxıstan azarkeşlərindən çox yaxşı dəstək oldu. Səhv etmirəmsə, 2:1 hesabı ilə öndə idi, rəqib 2:2 elədi və sonda 3:2 hesablı qələbə qazandıq. Görüşün bitməsinə az qalmış qələbəni qopara bildik. Qazaxıstan millisində kifayət qədər bacarıqlı oyunçular var idi. Dolu tribunalar önündə qalib gəlmək xoşdur.

***- 2004-cü ildə Qazaxıstan “Jenis” klubuna keçsəniz də, heç bir rəsmi oyununa çıxmamısınız. Sonra nə oldu?***

- Hər şey çox sadədir: razılaşa bilmədik. Təkcə maliyyə baxımından deyil, bəzi texniki məsələlər də var idi. “Jenis”in həmin rəhbərliyinə minnətdaram, çünki onlar bəzi texniki məsələləri həll etməyə çalışdılar. Bunun üstündən 20 il vaxt keçib. Texniki məqamlar “Jenis”də oynamağıma imkan vermədi.

***- Hazırda Moskva MOİK-i ilə Azərbaycan millisində eyni anda çalışırsınız? Bu çətin deyil?***

- Artıq bir ilə yaxındır ki, Azərbaycan millisində çalışmıram. 2021-ci ilin mayından yığmada fəaliyyət göstərmirəm. Sizin də dediyiniz kimi, eyni anda iki yerdə işləmək asan deyildi. Bir ildən çoxdur MOİK-dəyəm, orada hər şey yaxşı gedir. “Ordu” klubunda eyni zamanda gənc qapıçılarla da paralel çalışıram. Əsas qapıçımız İqor Akinfeyevdir.

***- Hazırda Qazaxıstanda çıxış edən Emil Balayevin oyun təcrübəsi azır. Sizcə, onun fiziki və psixoloji durumu necə olar?***

- Emil Balayev Qazaxıstanda daha çox oynamalıdır. Düşünürəm ki, növbəti bir neçə görüşdə optimal formasını bərpa edəcək və “Tobol”da olduğu dönəmdəki kimi yaxşı oyun tempi qazanacaq. Ona həm Qazaxıstan klubunda, həm də təbii ki, Azərbaycan millisində uğurlar arzulayıram.

***- “Astana Arena”nın süni meydançası milli komandanızın futbolçularına problem yaratmayacaq?***

- Hesab edirəm ki, bu, komandamız üçün böyük problem olmayacaq. Çünki Azərbaycanda keyfiyyətli süni örtüklü sahələr kifayət qədərdir. “Astana Arena”nın da süni örtüyü yaxşıdır. Ona görə də uyğunlaşma baxımından, bəlkə ilk 20-25 dəqiqəyə alışmaq lazım gələcək, sonra hər şey qaydasına düşəcək.

***- Qazaxıstan - Azərbaycan matçında necə mübarizə gözləyirsiniz?***

- Hər iki komanda ilk oyuna optimal vəziyyətdə çıxacaq. Hər ikisində səviyyəli oyunçular var. Nəticəni proqnozlaşdıra bilmərəm, amma mənə elə gəlir ki, şanslar bərabərdir. Təbii ki, milli komandama - Azərbaycan yığmasına azarkeşlik edəcəyəm. Hər iki komandaya Millətlər Liqasında uğurlar arzulayıram.

# Şəhriyar Məmmədyarov uduzdu, Teymur Rəcəbov qalib gəldi

***Azərbaycan şahmatçıları Şəhriyar Məmmədyarov və Teymur Rəcəbov Norveçin Stavanger şəhərində keçirilən “Norway Chess” turnirinin əsas mərhələsində növbəti görüşlərini keçiriblər.***

Qol.az xəbər verir ki, Məmmədyarov yarışın ikinci günündə fransalı Maksim Vaşye-Laqravla üz-üzə gəlib.

Qara fiqurlarla oynayan 37 yaşlı qrossmeyster rəqibi ilə heç-heçə etsədə də, ikinci görüşündə məğlub olub.

Rəcəbov norveçli Aryan Tari ilə ağ fiqurlarla sülhə razılaşıb. Buna baxmayaraq təcrübəli şahmatçı ikinci qarşılaşmada Tariyə qalib gəlməyi bacarıb. Hazırda Məmmədyarovun 2.5, Rəcəbovun isə 1.5 xalı var. İyunun 10-da başa çatacaq turnirin mükafat fondu 2 500 000 Norveç kronudur (451 000 manat).

# “Neftçi”də ilk ayrılıq



***“Neftçi”ni tərk edən ilk futbolçu bəlli olub.***

Apasport.az saytının Portuqaliya mətbuatına istinadən məlumatına görə, müdafiəçi Huqo Basto vitse-çempionu tərk edib.

Bildirilib ki, “ağ-qaralar”la müqaviləsi başa çatan 29 yaşlı mərkəz müdafiəçisi “Neftçi” macərasını başa vurub və hazırda digər təklifləri təhlil edir.

Qeyd edək ki, Huqo Basto ötən mövsüm Premyer Liqada 8 oyunda iştirak edib.

# Peledən Putinə müraciət



***Əfsanəvi braziliyalı futbolçu Pele Ukraynada gedən müharibəyə görə Rusiya Prezidenti Vladimir Putinə müraciət edib.***

Qol.az g1.globo.com-a istinadən xəbər verir ki, 81 yaşlı sabiq forvard deyib:

“Mən bir xahişlə müraciət etmək istəyirəm: bu müharibəni dayandırın. Zorakılığa haqq qazandıra biləcək heç bir arqument yoxdur”.

Qeyd edək ki, Pele və Putin sonuncu dəfə 2017-ci ildə Moskvada Konfederasiyalar Kuboku zamanı görüşüblər.

# Ukrayna Şotlandiyanı məğlub edərək Uelsə rəqib oldu - DÇ-2022



***DÇ-2022-nin pley-off mərhələsinin yarımfinalının təxirə salınmış Şotlandiya - Ukrayna oyunu keçirilib.***

Qlazqo şəhərindəki ”Hempden Park” stadionunda oynanılan matç Ukrayna millisinin 3:1 hesablı qələbəsi ilə başa çatıb. Ukraynalılar pley-off-un final mərhələsində Uelslə qarşılaşacaq.

Qeyd edək ki, UEFA Ukraynadakı müharibə səbəbindən yarımfinal və final görüşlərinin vaxtını dəyişmişdi.

DÇ-2022, pley-off mərhələsi, yarımfinal

**1 iyun**

22:45. Şotlandiya - Ukrayna - 1:3

Qollar: Yarmolenko, 33., (0:1), Yaremçuk, 49 (0:2), Makqreqor, 79 (1:2), Dovbik, 90+5 (1:3)

Baş hakim: Denni Makkelli (Niderland)

Qlazqo, ”Hempden Park” stadionu

# "Sabah"ın 3 futbolçusu əməliyyat olundu



***“Sabah”ın 3 futbolçusu əməliyyat olunub.***

Bu barədə klubun rəsmi saytı məlumat yayıb. Müdafiəçi Amin Seydiyev qasıq yırtığı əməliyyatı keçirib. Almaniyanın Münhen şəhərindəki klinikalardan birində baş tutan əməliyyat uğurlu keçib. Hücumçu Tiemoko Fofana və müdafiəçi Zurab Oçiqava isə Türkiyənin Ankara şəhərində əməliyyat olunub. Tiemoko dizindəki çarpaz bağın bərpası, Zurab isə menisk əməliyyatı keçirib. Hər iki əməliyyat uğurla başa çatıb.

# Ağabala Ramazanov bu kluba keçir

***”Zirə”dən ayrılan Ağabala Ramazanovun karyerasını ”Səbail”də davam etdirəcək.***

Qol.az xəbər verir ki, o, karyerasını sözügedən klubda davam etdirmək qərarına gəlib. Sözügedən transferin bugünlərdə rəsmən açıqlanacağı gözlənilir. Qeyd edək ki, A.Ramazanovun qardaşı Zaur Ramazanov ”Səbail”in yeni baş məşqçisi Mahmud Qurbanovun köməkçisidir. Xatırladaq ki, A.Ramazanov 2018/2019 mövsümündə də ”Səbail”də oynayıb.

# “Mançester Yunayted” “Barselona”yla danışıqlara başladı

***Frenki de Yonqu transfer etmək niyyətində olan “Mançester Yunayted” “Barselona” ilə danışıqlara başlayıb.***

Apasport.az saytının məlumatına görə, İngiltərə klubu yarımmüdafiəçinin keçidini bu yay gerçəkləşdirmək niyyətindədir.

İspaniyalılar futbolçusu üçün 85 milyon avro tələb edir. Premyer Liqa təmsilçisi bu rəqəmi aşağı salmaq üçün müzakirələr aparır. De Yonqun özü isə “Barselona”da qalmağa ümidlidir. Lakin “Barselona”nı təzyiq altında saxlayan maliyyə problemləri bu keçidin reallaşmasına təkan verə bilər. Qeyd edək ki, Frenki 2019-cu ildə “Ayaks”dan “Barselona”ya keçib.